04 (1310) 1-7 fevral 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## ÖLKƏLƏRİMİZ ARASINDA ƏLAQƏLƏR STRATEJİ MÜTTƏFİQLİK SƏVİYYƏSİNƏ ÇATMAQDADIR



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 29-da Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Hulusi Akar Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət" prinsipi üzrə inkişaf etdiyini və bunun bir örnək olduğunu vurğulayıb.

Hulusi Akar Vətən müharibəsində Azərbaycanın qazandığı Qələbədə Prezident, Ali Baş Komandan İlham Əliyevin müstəsna rolunu bir daha vurğulayıb.

Prezident İlham Əliyev 44 günlük Vətən müharibəsinin ilk günlərindən Rəcəb Tayyib Ərdoğanın və qardaş Türkiyənin Azərbaycana göstərdiyi mənəvi, siyasi və diplomatik dəstəyi bir daha yüksək qiymətləndirib.

Söhbət zamanı ötən il sentyabrın 19-20-də Azərbaycanın 23 saatdan da az bir müddətdə həyata keçirdiyi antiterror tədbirləri zamanı ərazimizdə qeyri-qanuni silahlı birləşmələrin mövcudluğuna və təcavüzkar separatizmə son qoyulduğu, suverenliyimizin tam bərpa olunduğu vurğulanıb. Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsindən sonra da Azərbaycan Silahlı Qüvvələrində yeni islahatların aparıldığını deyib, Ordumuzun döyüş qabiliyyətinin daha da gücləndiyini qeyd edib və bütün bunların ötən ilin sentyabrında keçirilmiş antiterror tədbirlərində bir daha özünü bariz şəkildə göstərdiyini bildirib.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın inkişafı və yeni sahələri əhatə etməsi məmnunluqla qeyd olunub, bu təşkilatın parlamentlər xətti ilə də müvafiq komitələr səviyyəsində əlaqələrin yaradılması və bu komitələrin birgə iclaslarının keçirilməsinin vacibliyi diqqətə çatdırılıb. Şuşa Bəyannaməsinin əhəmiyyəti vurğulanıb, Azərbaycan ilə Türkiyə arasında hərbi, müdafiə sənayesi, təhlükəsizlik, parlamentlərarası əlaqələr və digər sahələrdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparılıb.

## "AŞPA-nın qərəzli addımını qətiyyətlə pisləyirik"

"Biz bir neçə gün bundan öncə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) ölkəmizə qarşı atılan tamamilə qərəzli və qəbul edilməyən addımı qətiyyətlə pisləyirik. Bununla bağlı Azərbaycanın AŞPA-dakı nümayəndə heyəti də çox açıq şəkildə etirazını ifadə edib".

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında deyib.

Nazir qeyd edib ki, Azərbaycan nümayəndə heyətinin rəsmi mövqeyi qurum üzvlərinin diqqətinə çatdırılıb.



*"Azərbaycana qarşı belə bir qərəzli münasibətin əsas səbəbi məhz ölkəmizin öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsi ilə bağlıdır. Açıq deməliyik ki, ölkəmizdəki proseslərlə bağlı Avropa Şurası Parlament Assambleyasının müxtəlif rəyləri hər zaman mövcud idi. Azərbaycan nümayəndə heyəti də buna uyğun olaraq adekvat mövqe ifadə edirdi. Baş tutan müzakirələrdə hər hansı məsələlərlə bağlı razılaşmanın əldə edilib-edilməməsi halları da yaşanırdı. Ancaq bu, bir işçi prosesdir və bu proses 20 il ərzində davam edirdi"*, - deyə Azərbaycan XİN rəhbəri vurğulayıb.

## "Fransa ilə Azərbaycan arasında olan münasibətlər tarixi mövqedən baxdıqda hazırda ən aşağı səviyyədədir"

Bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov jurnalistlərə açıqlamasında deyib.

O bildirib ki, Azərbaycan tərəfi Fransa ilə münasibətləri böhran səviyyəsinə çatdırmaq üçün heç bir təşəbbüs irəli sürməyib.

***"Təəssüf ki, qəbul edilməyən münasibətlərin təşəbbüskarı həmişə Fransa olub. Bəzi hallarda bu kimi proseslər Fransa tərəfindən açıq bəyanatlar, ölkəmizə qarşı təhdid və hədə elementlərini özündə ehtiva edən açıqlamalardan ibarətdir. Bir çox hallarda Azərbaycan ictimaiyyəti bunlar barədə məlumatlı olmur. Tam məsuliyyətlə qeyd edə bilərəm ki, müxtəlif platformalarda örtülü şəkildə ölkəmizə qarşı aparılan sistemli işin arxasında dayanan əsas ölkə məhz Fransadır.***

***Bu addımları atan ölkəyə qarşı da Azərbaycan adekvat cavab verəcək. Fransa atdığı addımların yanlış olduğunu nə zaman bildirərsə, biz o zaman onu dəyərləndirərik"***, - deyən nazir Fransanın gec-tez bu qənaətə gələcəyinə ümidvar olduğunu bildirib.

# İSTİQLALIMIZIN SİYAVUŞU

***Tarix öz köksündə və çoxqatlı yaddaşında yalnız qlobal ideyaların daşıyıcılarını saxlayır. Azərbaycan siyasi təfəkkürünün simvolu olan Məhəmməd Əmin Rəsulzadə qlobal ideyaların daşıyıcısı və bu tarixin özünü yaradanlardan idi. O, milli tariximizin Mirzə Fətəli Axundov və Həsən bəy Zərdabidən başlanan yeni səhifəsini tamamladı. Rəhbərlik etdiyi milli hərəkatın ideologiyasını hazırladı, beyinlərə istiqlal toxumu səpdi, milli müstəqillik məsələsini gündəmə gətirdi. Məsləkdaşları ilə birlikdə Şərqdə ilk parlamentli respublika – Cümhuriyyət yaratdı, Şurayi-Millinin rəisi, müstəqil Azərbaycanın ilk dövlət başçısı oldu.***



Süqutundan sonra da onu yaşatmaq və dirçəltmək üçün böyük mücadilə apardı. "Bu, bir fasilədir, istiqlal günəşi yenidən doğacaqdır" dedi. Və həmin günəş yenidən doğdu... Doğan günəş həm Cümhuriyyət banisinin uzun illər xalqdan gizlədilmiş istiqlal savaşının, həm də Azərbaycan xalqının rus müstəmləkəsinə qarşı azadlıq mübarizəsinin üzərinə işıq saldı...

* * *

XVIII əsrin əvvəllərindən başlayaraq I Pyotrun Avropaya pəncərə açması ondan sonra taxta çıxmış II Yekaterinanı da Asiyaya qapı açmağa həvəsləndirdi. Tezliklə rus süngüləri Qafqaz dağlarında parlamağa başladı. Qonşu torpaqları işğal edərək, ölkə ərazilərini genişləndirən zəhmli II Yekaterina Rusiyanı adi dövlətdən imperiyaya çevirdi.

XIX əsrin əvvəllərində Rusiyanın öz sərhədlərini cənuba doğru daha da böyütmək, Qara dənizə və Hind okeanına çıxmaq planları qanlı savaşlara səbəb oldu. Bu savaşlarda Osmanlı dövlətini və İranı məğlub edən Çar Rusiyası çoxdan can atdığı Krımı, sonra da Qafqazı ələ keçirdi. Uzun illər davam edən müharibələrdən sonra əvvəlcə Dağıstanın yerli xalqları rus təbəəliyinə keçdi. Ardınca isə Cənubi Qafqazda öz dövlətləri olan gürcülər və azərbaycanlılar rus işğalına məruz qaldılar. Gəncədə Cavad xan təpədən-dırnağa kimi silahlanmış işğalçı rus ordusuna qarşı sonadək müqavimət göstərdi. O, həlak olduqdan sonra işğalçılara müqavimət göstərə bilməyən pərakəndə xanlıqların süqutu ilə Azərbaycan dövlətçiliyinə son qoyuldu.

Avropa ilə Asiyanın qovşağında cərəyan etmiş həmin qanlı hadisələrdən 100 il sonra – XX əsrin əvvəllərində Çar Rusiyasının daha da möhkəmlənməyə çalışdığı Qafqazda, o cümlədən neft Bakısında siyasi vulkanlar püskürməyə başladı. Bu qarşısıalınmaz fırtınalardan sıyrılaraq meydana çıxmış millət fədailəri, sağlam millətçilik ideologiyasını hazırlamış ziyalılar xalqın bir əsr əvvəl itirdiyi dövlət müstəqilliyini bərpa etmək uğrunda hərəkata başladılar. Tarix öz məmləkətində milli hakimiyyət qurmaq uğrunda gedən həmin hərəkata rəhbərlik missiyasını Məhəmməd Əmin Rəsulzadənin üzərinə qoydu.

Rəsulzadə ruhən Şərqli olsa da, milli hərəkatda Qərb təfəkkürü ilə davrandı. O, orta əsrlərə məxsus cəngavərlik dövrünün çoxdan keçdiyini yaxşı anladığından xalqı öz müstəqilliyinə qovuşdurmağın dinc üsulunu – siyasi mübarizə yolunu seçdi. Ana dilində təhsilin olmadığı, dini avamlıq və mövhumatın dərin kök saldığı, cəhalətin zehinlərə dərin nüfuz etdiyi bir cəmiyyətdə siyasi maariflənmə işi apardı. Özündən əvvəlki maarifçilər kimi şüurları oyatmağa, insanları hərəkətə gətirməyə çalışdı.

Gənc yaşlarından məsləkdaşları ilə birlikdə siyasi təşkilatlar yaradıb, qəzetlər təsis edən M.Ə.Rəsulzadə millətin gözünü açmağın, onu dünyadakı mətləblərdən agah etməyin yollarını aradı. Ali məqsədinə doğru gedən yollarda əziyyətlərə düçar oldu, əzablara qatlaşdı, dəfələrlə ölüm təhlükəsi ilə üzləşdi, qərib ölkələrdə mühacirət həyatı yaşadı, maddi sıxıntılar, mənəvi iztirablar çəkdi, həbsxanalara düşdü, lakin əqidəsindən dönmədi. Mübarizə dostu, məşhur tatar siyasətçi Abdulla Taymasın dediyi kimi, "Rəsulzadə öz xalqının azadlığı və istiqlalı uğrunda mübarizədə hər şeyini – rahatlığını, sağlamlığını, ailəsini, nəhayət, bütün həyatını qurban verdi…" Lakin bu ibrətamiz həyatı ilə göstərdi ki, tarixin həlledici anında millət naminə çəkilən zəhmətlərin, tökülən qanların, yıxılan xanimanların, axıdılan göz yaşlarının yalnız bir təsəllisi vardır: İSTİQLAL!

Hərbi-siyasi cəhətdən çox mürəkkəb bir tarixi şəraitdə aparılan çətin mübarizədən sonra 1918-ci il mayın 28-də həmin istiqlal ideyası gerçəkləşdi. Məhəmməd Əminin rəhbərlik etdiyi milli hərəkat nəticəsində türk-müsəlman Şərqində ilk parlamentli respublika – demokratik idarəçiliyə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti yaradıldı. Rəsulzadə bu cümhuriyyətin nəzəri əsaslarını, onun ideologiyasını hazırladı, müstəqil ölkənin ilk dövlət başçısı oldu. Bu səbəbdən də haqlı olaraq onun adı bu gün Azərbaycan xalqının istiqlal savaşının, milli məfkurəsinin və dövlət müstəqilliyinin simvoluna çevrilib.

Azərbaycan siyasi təfəkkürünün onurğa sütunu və təmsilçisi olmaqla yanaşı, M.Ə.Rəsulzadə həm də bir mütəfəkkir və kulturoloji hadisə sayılır. Onun zəngin və çoxşaxəli yaradıcılığı bu tarixi şəxsiyyətin Azərbaycanın kulturoloji fenomeni kimi dəyərləndirilməsini şərtləndirir. Çünki o, siyasi lider kimi Azərbaycanın istiqlaliyyəti ilə yanaşı, bu xalqın tarixinin yazılmasına və öyrənilməsinə, onun milli ədəbiyyatının araşdırılmasına, mətbuatının və ana dilinin tərəqqisinə, milli mədəniyyətinin tarixi qaynaqlarının üzə çıxarılmasına və təbliğinə böyük önəm vermişdir. Təəssüf ki, onun bədii yaradıcılığı, poetik dünyası, dram əsərləri az öyrənilib.

Cümhuriyyətin süqutundan sonra Rəsulzadə gizlənməyə məcbur olduğu Lahıc dağlarında bu gün də çox populyar olan "Əsrimizin Siyavuşu" əsərini yazmışdı. Firdovsinin "Şahnamə"sindən qaynaqlanan həmin əsərdə deyilir ki, "istiqlal nəşəsi fədailər yetişdirir, necə ki, Türkiyə yetişdirdi. Fikir öldürülməz, necə ki, Neronun arslanları xristianlığı parçalaya bilmədi". O, böyük inamla yazırdı ki, Musa peyğəmbərin Firondan qaça bilməsi haqqın, Qalileyin cəllad önündə susmaması isə söz və fikrin əbədiliyidir. Yaşadığı tale baxımından özü də Azərbaycan istiqlalının Siyavuşuna çevrilən Məhəmməd Əmin belə hesab edirdi ki, "Cümhuriyyət fikrinin keçici bolşevik istilası ilə, yaxıcı, yıxıcı qüvvələriylə qəhr olunacağını" düşünmək acizdir, "sadə bir qığılcım kifayətdir ki, bu müqəddəs atəş təkrar yansın". Uzun sürən sovet istilasından sonra tarix bu sözlərdəki uzaqgörən həqiqəti sübut etdi...

* * *

Sovet rejimi 70 il ərzində Şərqdə ilk demokratik Cümhuriyyətin bayrağını ucaltmış millət fədailərinə, o cümlədən və daha çox M.Ə.Rəsulzadəyə qarşı barışmaz mübarizə apardı. Marksizm-leninizm ideoloqları Rəsulzadənin millət və tarix qarşısındakı xidmətlərini danmağa, Cümhuriyyət banisinin şəxsiyyətinin miqyasını kiçiltməyə, günəşin üzünü qara buludlarla örtməyə çalışdılar. Amma nə xalqın qəlbində yaşayan azadlıq atəşini, nə də ürəklərdəki Cümhuriyyət və Rəsulzadə sevgisini söndürə bilmədilər.

Bu gün M.Ə.Rəsulzadənin Hollivud filmləri üçün cazibədar dramaturji material olacaq keşməkeşli ömür yolu, millət qarşısındakı misilsiz xidmətləri, saysız-hesabsız əsərləri gün işığına çıxarılmışdır. Müasir gənclik onu tanıdıqca daha çox sevir. Sevdikcə onu dünyanın böyük tarixi şəxsiyyətləri sırasında görür.

**Professor Qulu MƏHƏRRƏMLİ**
**"Müsavat" qəzeti**

# Onun ən böyük amalı insanlara hürriyyət, millətlərə istiqlal idi...





***Yanvarın 30-da Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyinə həsr edilmiş “Məhəmməd Əmin Rəsulzadə tariximizdə, ədəbiyyatımızda, mənəviyyatımızda” mövzusunda elmi konfrans keçirilib. Konfrans Prezident İlham Əliyevin “Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında” 2023-cü il 30 dekabr tarixli Sərəncamına əsasən təşkil olunub.***

AZƏRTAC xəbər verir k, konfransda Ədəbiyyat Muzeyinin direktoru akademik Rafael Hüseynov “Milli düşüncəmizin Məhəmməd Əmin Rəsulzadə səhifəsi” mövzusunda çıxış edib. Rafael Hüseynov Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) qurucularından biri olan Məhəmməd Əmin Rəsulzadənin həyat və fəaliyyətindən, istiqlal, azadlıq uğrunda mübarizəsindən, Azərbaycanın ictimai-fikir tarixində yeri və rolundan söz açıb. Akademik XIX əsrin sonu XX yüzilliyin əvvəllərində Azərbaycanın bir sıra görkəmli şəxsiyyətlər yetişdirdiyini və həmin insanların gələcək nəsillərə örnək olacaq mübarizə yolunun hər zaman yaddaşlarda yaşayacağını bildirib. ***“1903-cü ildə ilk ictimai-siyasi təşkilatı yaradarkən M.Ə.Rəsulzadənin 19 yaşı var idi”***, - deyən akademik onun siyasi fəaliyyətə başlayarkən çox gənc olduğunu söyləyib. Qeyd edib ki, XX əsrin başlanğıcında siyasət aləminə gələn M.Ə.Rəsulzadə istiqlal düşüncəsi, azadlıq eşqi ilə mübarizələrin ön cərgəsinə çıxdı.

R.Hüseynov diqqətə çatdırıb ki, 1918-ci ilin sentyabrında Azərbaycanın istiqlalı elan edildikdən az sonra hakimiyyət Gəncədən Bakıya köçdü. Milli hökumətimizin üzvləri o zamanlar “Metropol” adlanan mehmanxanada, indiki Ədəbiyyat Muzeyinin yerləşdiyi binada həm yaşayır, həm də işləyirdilər. İstiqlalımızın təməlləri bu tarixi məkanda qoyulub. Həmin insanların şərəfinə “İstiqlal” adlandırılan bu zalda AXC-nin iclasları keçirilib, Azərbaycanın gələcəyi üçün vacib qərarlar verilib, müzakirələr aparılıb. Azərbaycan hökumətinin ilk çağırışları da buradan eşidilib. Ona görə də bu binada M.Ə.Rəsulzadənin 140 illiyinin qeyd edilməsi tarixin məntiqidir.

Akademik 1918-ci il mayın 28-də Tiflisdə Azərbaycanın İstiqlal Bəyannaməsinin elan edilməsini xalqımızın tarixində ən bəxtiyar, mühüm hadisə adlandırıb. Qeyd edib ki, Rəsulzadə ömür boyu insanlara hürriyyət, millətlərə istiqlal ideyası ilə yaşadı. Ömrünün sonunadək daim Azərbaycan istiqlalının, Azərbaycan istiqlal düşüncəsinin sönməsinə imkan verməyənlərdən oldu.

R.Hüseynov diqqətə çatdırıb ki, M.Ə.Rəsulzadə ictimai mühitə ədəbi, poetik düşüncə ilə gəlib. ***“Bir kərə yüksələn bayraq bir daha enməz” deyərkən M.Ə.Rəsulzadə istiqlal düşüncəsini nəzərdə tuturdu. Onun 1920-ci ildən sonrakı bütün fəaliyyəti ondan ibarət oldu ki, mühacirətdə istiqlal işığını sönməyə qoymadı.*** Ürəklərdə, düşüncələrdə dalğalanmaqda davam edən bayrağın var olmasını təmin etdi. Ona görə də Məhəmməd Əmin Rəsulzadənin adı hər zaman yaddaşlarda yaşayacaq. XX yüzilliyin əvvəlində Azərbaycanın istiqlal düşüncəsinin yüksəlişinin əsasını qoyanlardan biri olan M.Ə.Rəsulzadə həm də bu istiqlal düşüncəsinin siyasi irsini yaratdı. Onun cildlərlə əsərləri Azərbaycanda, Türkiyədə nəşr olunub. M.Ə.Rəsulzadənin parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi zaman keçdikcə də yaşayacaq.

Tədbirdə Məhəmməd Əmin Rəsulzadənin nəvəsi, Əməkdar rəssam Rais Rəsulzadə atası Azər Rəsulzadə ilə bağlı xatirələrini bölüşüb.

Sonra Ədəbiyyat Muzeyinin tərtibatçı rəssamı Leyla Məmmədovanın təqdimatında muzeyin yeni layihəsi tədbir iştirakçılarının diqqətinə çatdırılıb. Leyla Məmmədova M.Ə.Rəsulzadənin yeni heykəlinin hazırlanması üçün müxtəlif eskizlərini təqdim edib və onlar haqqında ətraflı məlumat verib.

***Konfransda M.Ə.Rəsulzadə haqqında digər məruzəçilərin də çıxışları dinlənilib.***

# PA, MM və XİN-də müzakirlər aparılıb: Azərbaycan Avropa Şurasından çıxa bilər




Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qərəzli siyasətindən sonra Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırdı.

AŞPA-nın məlum qərarı ilə bağlı bu günlərdə Prezident Adminstarsiyası (PA), Milli Məclis (MM) və Xarici İşlər Nazirliyinin (XİN) ekspertlərinin iştirakı ilə işçi müzakirə keçirilib.

Müzakirələrdə AŞPA-da Azərbaycana qarşı qərəzli münasibətə və əsassız ittihamlara cavab olaraq Azərbaycanın Avropa Şurasından çıxması və Beynəlxalq Məhkəmənin yurisdiksiyasını tanımaqdan imtina məsələsinin siyasi, hüquqi parametrləri müzakirə olunub. Xatırladaq ki, daha əvvəl AŞPA-nın qərəzli siyasətinə qarşı olaraq Azərbaycanın Avropa Şurasından çıxa biləcəyi ilə bağlı məlumat verilmişdir. Hazırda isə bu məsələ ekspertlər tərəfindən müzakirə olunur və Azərbaycanın Avropa Şurasından çıxmaq ehtimalı artır.

# Azərbaycan Aİ-nin tranzit sisteminə qoşulmaq üçün iş aparır




“Azərbaycan Avropa İttifaqı (Aİ) ilə tərəfdaşlıq çərçivəsində tranzit sisteminə qoşulmaq üçün iş aparır”.

Bunu Dövlət Gömrük Komitəsinin (DGK) Gömrük inzibatçılığı baş idarəsinin Gömrük tənzimlənməsi idarəsinin rəisi Cəfər Quluzadə “Caspian Energy Club” və “Azərbaycan Nəqliyyat Ekspeditor Şirkətləri Assosiasiyası” İctimai Birliyinin təşkil etdiyi “CEO MeetUp Logistics & Trade” adlı tədbirdə bildirib.

Onun sözlərinə görə, bu çərçivədə Azərbaycanda kompüterləşdirilmiş tranzit sistemi tətbiq olunur.

***“Azərbaycan bu konvensiyaya qoşulmaq üçün mövqeyini bildirib, Norveçin paytaxtı Osloda ölkəmiz qeyri-formal müşahidəçi statusu alıb. Qanunvericiliklə bağlı işlər tamamlandıqdan sonra monitorinq qrupu dəyərləndirmə həyata keçirəcək. Bunun alt bazası ilə bağlı işlər həyata keçirilir. Həmçinin veb-tranzit layihəsi həyata keçirilib”***, - deyə idarə rəisi əlavə edib

# “Yaşıl enerji” körpüsünün yaradılması müzakirə edilib



Energetika naziri Pərviz Şahbazov ölkəmizdə səfərdə olan Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Görüşdə Azərbaycan və Türkiyə prezidentlərinin qardaşlıq-dostluq münasibətlərinin ölkələrimiz arasında bütün sahələrdə əlaqələrin, o cümlədən, enerji əməkdaşlığının davamlı inkişafını təmin etməsindən məmnunluq ifadə edilib. Azərbaycan-Türkiyə çoxşaxəli enerji tərəfdaşlığının müttəfiqlik münasibətlərinin möhkəmləndirilməsində rolundan bəhs edilib. Söhbət zamanı hazırda iki ölkənin enerji gündəliyinin prioritet istiqamətləri üzrə geniş müzakirələr aparılıb.

Azərbaycandan Türkiyə və Avropaya təbii qaz təchizatının mövcud vəziyyəti və uzunmüddətli perspektivləri, TANAP-ın genişləndirilməsi, həmçinin, İğdır-Naxçıvan qaz kəmərinin inşası və bu il istismara verilməsinin irəli gələn məsələlər nəzərdən keçirilib. Bundan başqa Naxçıvanın “yaşıl enerji zonası” kimi inkişafında Türkiyə ilə əməkdaşlığın önəmi vurğulanıb və bu xüsusda burada istehsal olunacaq elektrik enerjisinin Türkiyəyə ixracı, buradan Avropaya nəqli imkanlarının araşdırılması, bu məqsədlə infrastrukturun yaradılması kimi məsələlərin həlli ilə bağlı hər iki tərəfin iştirakı ilə yaradılmış İşçi qrupu çərçivəsində fəaliyyət nəzərdən keçirilib. Bu istiqamətdə növbəti addımlar müəyyənləşdirilib.

# Azərbaycan-Türkiyə münasibətləri daha da möhkəmlənir



Yanvarın 29-da Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi üzvlərinin Türkiyə Böyük Millət Məclisinin (TBMM) Milli müdafiə komissiyasının sədri Hulusi Akarın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə komitə sədri Səməd Seyidov bir millət, iki dövlət olan Azərbaycanla Türkiyə arasında dostluq, qardaşlıq münasibətlərinin uğurla inkişaf etdiyini deyib, qardaş ölkələr arasında bütün istiqamətlərdə əməkdaşlığın daha da möhkəmləndiyini və artıq yeni səviyyəyə yüksəldiyini bildirib. O, Hulusi Akarın Türkiyənin milli müdafiə naziri olduğu dövrdə gördüyü işlərin yüksək qiymətləndirildiyini qeyd edib.

Komitə sədri Qarabağ məsələsində, 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana göstərdiyi dəstəyin önəmindən bəhs edib, Azərbaycan və Türkiyə prezidentlərinin imzaladıqları Şuşa Bəyannaməsinin mühüm tarixi əhəmiyyət kəsb etdiyini vurğulayıb. O, Azərbaycanın regionda sülh və əmin-amanlığın tərəfdarı olduğunu, lakin buna maneçilik törədildiyini və bu manеələrə qarşı lazımi addımların atıldığını söyləyib.

Səməd Seyidov Azərbaycanla Türkiyənin hər zaman bir-birinin yanında olduğunu, hazırda ölkələrimiz arasında əlaqələrin yeni mərhələyə qədəm qoyduğunu, Türk dünyası çərçivəsində münasibətlərin genişləndirildiyini bildirib.

Hulusi Akar ölkəmizdə bütün sahələrdə müşahidə olunan dinamik inkişafdan məmnunluğunu bildirib. Qonaq səfər zamanı keçirdiyi görüşlərdən, aparılan danışıqlardan razılıqla söhbət açıb. O, iki ölkə arasında qardaşlıq və müttəfiqlik əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyini söyləyib. Türkiyə-Azərbaycan dostluq və qardaşlıq münasibətlərinin bundan sonra da möhkəmlənəcəyinə əminliyini ifadə edib.

Görüşdə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri çıxış edərək əlaqələrimizin tarixi və bu günü, iki ölkə arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi haqqında fikirlərini açıqlayıblar.

# Utilizasiyaya verilmiş nəqliyyat vasitələri üçün birdəfəlik ödənişlər veriləcək

Bu, Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilən “Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə Qaydası”nda əksini tapıb.

Qaydaya əsasən, Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaiti aşağıdakı istiqamətlər üzrə istifadə edilir:

- yeni istehsal olunmuş yerli nəqliyyat vasitələri utilizasiyaya verilməsi barədə təsdiqedici sənəd təhvil verilməklə satın alınan zaman tətbiq edilən güzəşt məbləğlərinin nəqliyyat vasitələrinin satıcılarına geri ödənilməsi;
- operatorun nəqliyyat vasitələrinin utilizasiyası ilə bağlı funksiyalarının icrasının təşkili və təmin edilməsi üçün vəsaitin ödənilməsi.





***Fevralın 7-də ölkəmizdə növbədənkənar prezident seçkilərinin keçirilməsi ölkəmizin ictimai-siyasi tarixində yeni bir mərhələnin başlanğıcı olacaq. Zəfər platformasında baş tutacaq növbədənkənar prezident seçkilərinin böyük ruh yüksəkliyi şəraitində keçiriləcəyi şübhəsizdir. Bunu redaksiyaya daxil olan yazılardan da görmək mümkündür. Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) müəllimlərinin məqalələrini diqqətinizə çatdırırıq.***

# Gənclərin hərtərəfli inkişafı Azərbaycanın sosial-iqtisadi tərəqqisinin prioritetidir

***Ötən 2023-cü il Azərbaycanın və türk dünyasının tarixində çox əlamətdar oldu. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi Türkiyə Cümhuriyyətinin 100 illiyi ilə bir vaxta düşdü. 2023-cü il Azərbaycanın suverenliyinin tam bərpası ili kimi tarixə yazıldı. Yaşadığımız dövrün Azərbaycanın tarixində intibah illəri kimi qalacağını əminliklə söyləmək olar. Qazanılmış qələbələr təkcə hərb meydanında deyil, ictimai həyatın bütün sahələrində əldə olunmuşdur. Qlobal miqyaslı problemlərin kəskinləşməsinə baxmayaraq, nailiyyətlərimiz yüksək və unikaldır. Sosial həyatda tərəqqimiz göz qabağındadır. Fəxr edirik ki, Azərbaycan özünü, sözün həqiqi mənasında, dünyada təsdiqləmişdir.***

Milli iqtisadiyyatın dayanıqlı inkişafı, o cümlədən gənclər siyasətinin həyata keçirilməsi sayəsində əldə edilən nailiyyətlərin əsasında ümummilli lider Heydər Əliyevin ideyaları durur. Ölkəmizin bugünkü nüfuzu, iqtisadi qüdrəti, heç şübhəsiz, Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi siyasətin məntiqi nəticəsidir. Həmin ideyaların ölkə başçısı tərəfindən XXI əsrin çağırışlarına uyğun yaradıcılıq və uzaqgörənliklə, gəncliyin intellektual potensialına arxalanmaqla reallaşdırması günümüzün reallığıdır.

Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə gənclərə, onların hərtərəfli inkişafına və cəmiyyət həyatında fəal rol oynamasına xüsusi diqqət yetirmişdir. Müstəqil Azərbaycanın memarı və qurucusu Heydər Əliyevin 9 aprel 2002-ci il tarixində imzaladığı "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu gənclər siyasətinin məqsədlərini, prinsiplərini, istiqamətlərini, təşkilati-hüquqi əsaslarını müəyyən edərək, bu sahədə yaranan münasibətlərin tənzimlənməsində həlledici rol oynamışdır.

Müasir dünyada ölkənin inkişafı onun iqtisadi təhlükəsizliyinin təmin edilməsi ilə bilavasitə bağlıdır. Son illər beynəlxalq konyunkturun əlverişsiz olması faktdır. Bununla belə, ölkəmizin strateji valyuta ehtiyatları artmaqda davam etmiş və ÜDM-in həcmini üstələmişdir. Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu neft strategiyasının reallaşması xronologiyası problemlərin həllində qətiyyətin, elmin və təcrübənin vəhdətinin nadir nümunəsidir. Həmin strategiyanın həyata keçirilməsində gənclərin yaradıcı enerjisindən, onların innovasiyalara açıqlığından, əqli və fiziki potensialından səmərəli şəkildə istifadə olunmuşdur.

Müstəqilliyin bərpasından sonra iqtisadi dirçəlişin lokomotivi olan, 1994-cü ilin 20 sentyabrında imzalanan "Əsrin müqaviləsi" xaricdən və daxildən təzyiqlərin artması şəraitində hazırlanmışdır. Azərbaycanın olduqca çətin iqtisadi və sosial vəziyyətdə olduğu həmin illərdə Ulu Öndərin "Gün gələcək, Azərbaycan dünyaya günəş kimi doğacaq" kimi əbədiyaşar ifadəsi vətəndaşlarımızı, xüsusilə gəncləri səfərbər etmişdir.

Heydər Əliyev deyirdi: "Heç bir ölkə, ən böyük ölkə də yalnız öz çərçivəsində iqtisadiyyatını lazımi səviyyədə inkişaf etdirə bilməz". Bu müdrik kəlam ölkəmizin dünya təsərrüfatına inteqrasiyasının konseptual əsasında durmaqla, beynəlxalq əməkdaşlığın inkişafında, gənclərin imkanlarının reallaşdırılmasında çox mühüm rol oynamışdır.

***Hazırda enerji marşrutlarının şaxələndirilməsi ideyasını reallaşdıran Azərbaycan günbəgün əhəmiyyəti artan qlobal enerji mərkəzinə çevrilir. Növbəti addımlar "Şahdəniz" qaz yatağı üzrə saziş, Bakı-Tbilisi-Ərzurum qaz ixrac boru kəməri və Cənub Qaz Dəhlizi layihəsinin həyata keçirilməsi Azərbaycanın inkişafının genişlənən miqyasını dünyaya göstərdi. Məhz Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sarsılmaz siyasi iradəsi sayəsində "Azəri-Çıraq-Günəşli" yataqlarının işlənməsi ilə əlaqədar Sazişin müddətinin 2050-ci ilədək uzadılması böyük tarixi hadisə oldu. Artıq həmin müqavilə "İki əsrin müqaviləsi" olmaqla, gənclərimiz üçün böyük məsuliyyət və sarsılmaz nikbinlik mənbəyidir.***

Ulu Öndərin milli iqtisadiyyatın dayanıqlı inkişafında əsas olaraq müəyyən etdiyi istiqamətlər, o cümlədən gənclər siyasətinin prioritetləri həyatımızın bütün sahələrini əhatə etmişdir. Həlledici addımlar kimi, Azərbaycanın karbohidrogen ehtiyatlarının iqtisadi dövriyyəyə çıxarılması sayəsində maliyyə dayanıqlığına nail olunması, ötən əsrin 90-cı illərində ölkənin düşdüyü kəskin problemləri həll etməklə iqtisadi inkişafın dayanıqlığının təmin edilməsi, sivil və dayanıqlı bazar münasibətləri qurmaq üçün hərtərəfli əsaslandırılmış islahatların həyata keçirilməsi, innovasiyalı yanaşmalar hesabına dayanıqlı inkişaf üçün möhkəm zəminin yaradılması qeyd olunmalıdır.

Bu gün gənclərin kənd yerlərində fəallığı tarazlı regional inkişafda və milli ərzaq təhlükəsizliyinin təminatında artan rola malikdir.

İnformasiya cəmiyyəti sivilizasiyanın yeni mərhələsi, postsənaye cəmiyyətinin konsepsiyasıdır. Bu cəmiyyətin konsepsiyasının uğuru onu dəstəkləyən maraqlı tərəflərin, xüsusilə gənclərin bütün təbəqələrini əhatə etməsindən asılıdır.

İntellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan, perspektiv rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 26 iyul 2019-cu il tarixli Sərəncamı gənclərin idarəetmədə fəal iştirakını təmin etməkdədir.

Vətən müharibəsində qələbə nəinki son 30 ilin, ümumilikdə son yüzilliklərin ən möhtəşəm hadisəsidir. Ölkə başçısı İlham Əliyev demişdir: "Müharibədə bütün nəsillərin nümayəndələri iştirak ediblər, qəhrəmanlıq göstəriblər. Amma hər kəs bilməlidir ki, əsas missiyanı mənim prezidentlik dövrümdə yetişən gənclər yerinə yetiriblər, 2003-cü ildə uşaq olan gənclər yerinə yetiriblər. İlk növbədə, biz onlara borcluyuq, bütün Azərbaycan xalqına borcluyuq". Bu gün gənclər azad edilmiş ərazilərin bərpası və inkişafında innovasiyaların tətbiqində aparıcı qüvvədir. Onlar Qarabağ və Şərqi Zəngəzurda yüksək yaradıcı fəallıq göstərir, ağıllı yaşayış məntəqələrinin yaradılmasında yaxından iştirak edirlər.

İqtisadi inkişafın tempi onun elmi təminatı və kadr hazırlığı səviyyəsi ilə bilavasitə əlaqədardır. Bu baxımdan Azərbaycan Dövlət İqtisad Universitetinin aparıcı rolu getdikcə mühüm əhəmiyyət kəsb edir. Həmin uğurlarda gənclərin artan rolu göz qabağındadır. Əlbəttə, bu istiqamətdə işlər davam etdirilməlidir. Ulu Öndər deyirdi: ***"Cəmiyyətin gələcək tərəqqisi bir çox cəhətdən indi gənclərimizə nəyi və necə öyrətməyimizdən asılı olacaqdır".***

Ölkəmiz yeni strateji mərhələyə daxil olur. Dayanıqlı və dinamik inkişafımızın, insana xidmət edən yeniliklər bazasında daha da sürətləndiriləcəyinə inam obyektiv reallığa, dövlətimizin gənclər siyasətinin uğurlarına əsaslanır. Qələbəmizin təntənəsinə xalqın verdiyi səs və sarsılmaz inam belə deməyə tam əsas verir ki, gəncliyin intellektual potensialı və yaradıcı enerjisi sayəsində Azərbaycanın iqtisadi qüdrəti daha da artacaq, yüksək rifah cəmiyyətinin formalaşması daha sürətlə baş verəcəkdir.

***Rəsul Balayev, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Rəqəmsal texnologiyalar və tətbiqi informatika kafedrasının professoru, i.e.d***

# Qlobal düzəndən milli ideyaya gedən yol

**Proloq**

***Rəvayətə görə, hind şahı İran şahına hədiyyələr göndərir. Onların içərisində şahmat oyun dəsti də olur. Şah məktubunda yazır: "Oyunda rəqibi məğlub edən, gerçək döyüşdə də məğlub edər". Hədiyyələri alan İran şahı qarşılığında göndəriləcək bəxşiş içərisində masaüstü oyunun da olmasını əmr edir. 10 günə hazırlanan oyun dəsti nərd olur. Hədiyyələrin üstündə göndərilən məktubda isə yazılır: "Amma döyüşün nəticəsi rəqiblərlə yanaşı, zər qismində talehin hömkündən də aslıdır".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev taleyin hökmündən məharətlə yararlanan, mürəkkəb geosiyasi dünyada qüvvələri səfərbər edə bilən, hücum üçün əlverişli zaman seçmək istedadına malik, səbirli dövlət başçısıdır.

**2 zəruri şərt**

**1-ci zəruri şərt.** Hər bir dövlət üçün onun beynəxalq münasibətləri mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın şərq-qərb, şimal-cənub dəhlizlərinin kəsişmə müstəvisi kimi strateji coğrafiyada yerləşməsi onun beynəxalq münasibətlərinin əhəmiyyətini artırır. ABŞ-ın sabiq prezidentinin təhlükəsizlik məsələləri üzrə müşaviri Zbiqnev Bzejinski "Böyük şahmat lövhəsi" əsərində Azərbaycanın geosiyasi önəmini vurğulayır.

**2-ci zəruri şərt.** Azərbaycanın atdığı zər YEK qoşadır. YEK 1 rəqəmini yox, abbreviaturanı ifadə edir - Yanacaq Energetika Kompleksi.

İlham Əliyev beynəxalq münasibətlər üzrə universitet məzunu kimi nəzəri biliyini toplayıb və ARDNŞ-nin birinci vitse-prezidenti olaraq təcrübi biliyə yiyələnib. Bu sahədə təcrübi və nəzəri biliyini isə ictimaiyyətlə akademik Azad Mirzəcanzadənin elmi redaktorluğu ilə nəşr edilən "Azərbaycanın Xəzər nefti" əsərində bölüşüb. Şübhəsiz, bu zəruri vəhdətdə Ulu Öndər Heydər Əliyevin dəsti-xətti var.

**Varis**

İsaak Nyutondan soruşanda ki, bu uğurlara necə gəlib çatıb, o deyib: ***"Mən bu uğurlara keçmiş fiziklərin çiyinləri üstündə gəlmişəm". İlham Əliyevin uğurlarının dayaq nöqtəsi Heydər Əliyevdir. "Mən ona özüm qədər inanıram"*** deməsi isə Ulu Öndərin xeyir-duası ilə başlanan inkişaf yolunun sabitliyinə işarədir.

**Konsepsiyalar**

İlham Əliyev Aristotelin "Sistem onun elementləri cəmindən daha böyükdür" düşüncəsilə inkişafın nəzəri əsaslara söykənməsi üçün konsepsual xarakterli sənədlərə, o cümlədən "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası (2012), "Strateji Yol Xəritəsi" (2016), "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" (2021) , "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" (2022), "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" (2022) kimi strateji inkişaf proqramlarına imza atır.

**Hədəf**

Hədəf Qarabağdır! Mövzuya öz hisslərimlə münasibət bildirirəm. 2006-cı ildə Qazaxıstanın paytaxtı Astana şəhərində Dövlət İdarəçilik Akademiyasında Qazaxıstan iqtisadiyyatının rəqabət qabiliyyətinə dair məruzədən sonra iştirakçılardan biri mənə Qarabağ haqqında sual verdi. Həmin an o zamanlar tez-tez deyilən "ərazimizin 20%-i işğal altındadır, 1 milyondan çox məcburi köçkünümüz var" ifadəsini demək mənə çox ağır gəldi. Sanki həmin qazax deyirdi: ***"Öz məsələnizi həll etməmisiniz, gəlib bizə məsləhət bildirirsiniz".*** O an mən Qarabağ məsələsinin milli şərəf məsələsi olduğunu qabarıqla hiss etdim. Şuşa alındığı gün – 2020-ci ilin 8 noyabrında isə bütün Azərbaycan xalqı kimi mənim də böyük sevinc hissi keçirməyim sanki Astanadakı ana cavab oldu. Milli şərəfimiz bərpa olundu. Başqa xalqların nümayəndələrilə görüşlərdə üzümüzdəki kədər və utanc hissi qalibiyyət və qürur hissilə əvəzləndi. Bizə bu hissləri yaşadan Şanlı Ordumuz və Müzəffər Ali Baş Komandana eşq olsun!

**Qlobal düzən**

Bəşəriyyət üçün gərəkli ol, bəşəriyyət probleminin həllinə kömək edər. Bakı qlobal humanitar fikir mərkəzinə çevrilir. Avroviziya Azərbaycanda keçirilir. Azərbaycan BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi sədri seçilir. Azərbaycan Qoşulmama Hərakatına sədrlik edir. NATO və Rusiya hərbi qərargah rəisləri görüşlərini Bakıya salır. Türk dünyası, islam aləmi, MDB və digər beynəxalq müstəvilərdə iştirak, ölkəmizin Rusiya və Türkiyə arasında körpü olması gücümüzü artırır. Belarusiya Respublikasının Prezidenti Aleksandr Lukaşenko deyir: ***"Rusiyanin Gazprom şirkəti təcili olaraq bizdən qaza görə yaranmış 900 milyon dollarlıq borcu qaytarmağı istədi. Bizim pulumuz yox idi. Rusiya Prezidenti V.Putinə müraciət də nəticə vermədi. Onda mən İlham Əliyevə zəng etdim. Cənab prezident dərhal göstəriş verdi ve pul Belarusiyaya köçürüldü. Azərbaycan prezidenti demişdi: Mən imkan verə bilməzdim ki, 2 slavyan xalqı arasında münaqişə olsun".***

Bosfor hökmdarı Levkonun tarixindən. Levkonun düşmənləri olur. O adlı-sanlı adamlardan borc alır. Sonra onlara deyir ki, düşmənləri var və onu qorumasalar, pullar qayıtmayacaq. Borc verənlər Levkonu qoruyur və o da düşmənlərə qalib gələrək hakimiyyətini möhkəmləndirir. Yəni, cənab prezident ölkəmiz üçün mühüm əhəmiyyət daşıyan qlobal maraqları daim Azərbaycana cəlb edir və bu maraqlar Azərbaycanın zəfər yolunu işıqlandırır. Cənab prezidentin artan dünya nüfuzu uğur açarıdır.

"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir". Heydər Əliyev Son 20 ildə (2003-2023-cü illərdə) Azərbaycanda adambaşına düşən ÜDM dəyəri 2,9 dəfə artaraq 12 min 114,5 manat təşkil edib. Azərbaycanda ölkə üzrə ÜDM-in dəyəri 3,6 dəfə artaraq 123 milyard manata çatıb. Həmçinin, neft-qaz sektoru üzrə ÜDM 2,3 milyard manatdan 45,3 milyard manata, qeyri-neft-qaz sektoru üzrə ÜDM isə 3,5 dəfə artımla 77,7 milyard manata yüksəlib. Qeyri-dövlət sektorunun ÜDM-də payı 13,2 faiz bəndi artımla 86,5%-ə çatıb. ÜDM-də sənayenin payı isə 37,3%-dən artaraq 40,4% olub. "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli Fərmanla müəyyən edilmiş strategiya ölkənin hərtərəfli inkişafına dair davamlı və sistemli proqramların əsasını qoydu. Azərbaycan Mərkəzi Bankının sədri Taleh Kazımov bildirib: ***"2003-cü ildən başlayaraq son 20 ildə həyata keçirilən strategiya sayəsində milli iqtisadiyyatın real xərci 4 dəfə, ixrac 15,6 dəfə artıb. İqtisadiyyatın orta artım tempi dünya üzrə orta səviyyədən 4 faiz yüksək olub. Ölkənin strateji valyuta ehtiyatları 41,9 dəfə artaraq 65,9 milyard ABŞ dollarına çatıb".***

**Strateji baxış və megatrendlərlə bir addımlamaq**

"Neft kapitalını insan kapitalına çevirək", - deyən cənab prezident xaricdə geniş həcmli təhsil lahiyəsini başlayır. "Hökumət elə təsəvvür etsin ki, heç neft yoxdur", - deyərək İlham Əliyev qeyri-neft sektorunun inkşafına istiqamətlənməni bildirir.

Dövlət başçısı megatrendlərdən rəqəmsallaşmaya, yaşıl iqtisadiyyata keçidə önəm verir. Bu sahədə çoxdanki problemlərin həlli ilə məşğul olur. Azərbaycan hökumətinin 2009-cu ilin sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasında cənab prezident deyib: ***"Abşeron yarımadasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına böyük ehtiyac var. Biz böyük təmizlik işləri aparmalıyıq".***

Gücə güc qatan

**Belə bir ifadə var:** cherche la femme. Onun tam mənası budur ki, hər bir uğurlu kişinin arxasında ağıllı qadın dayanır. Cənab prezidentin ömür-gün və iş yoldaşı, dövlət yükünün əhəmiyyətli hissəsini öz çiyinlərində daşıyan, gücünə güc qatan Birinci vitse-prezident Mehriban xanım Əliyeva var.

Milli ideya

Cənab prezident yerli telekanallara müsahibəsində Azərbaycan ictimaiyyətinə müraciət edərək, milli ideyanın müəyyən edilməsində iştiraka dəvət edib. O, deyib: ***"Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar".***

**Elşad Səmədzadə,
Azərbaycan İqtisadçılar İttifaqının sədr müavini,
Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə və Audit kafedrasının dosenti, i.f.d.**

# Rəqəmsal universitet: sahibkarlıq-dövlət əməkdaşlığında Heydər Əliyev irsi

***Milli dövlət quruculuğunun ilk illərində -1995-ci ildə ABŞ senatoru Qreq Laffin Bakıya gələrək Heydər Əliyevlə görüşdükdən sonra belə bir fikir söyləmişdi: "Siz Asiyanın Corc Vaşinqtonusunuz". ABŞ senatorunun bu müqayisəsi heç də təsadüfi deyildi. Bu qiymətləndirmə Heydər Əliyev şəxsiyyətinin böyüklüyünün etirafı idi.***



1994-cü ildə İngiltərədə rəsmi səfərdə olduğu zaman Baş nazir Con Meysorun müavini Heydər Əliyevin öz vətəni və xalqı üçün bütün imkanlarını və bacarığını səfərbər etdiyini görərək belə bir fikir söyləyir: ***"Biz indi gördük ki, siz, doğrudan da, millətinin gələcəyini düşünən bir dövlət xadimisiniz".***

Heydər Əliyevin potensial idarəçilik qabiliyyətini hələ o zaman etiraf edərək deyirdilər: ***"Artıq bütün SSRİ-də sənə ehtiyac duyulur.Azərbaycan daha sənin üçün kiçikdir". "Heydər Əliyev iti ağlı, güclü məntiqi, fenomen yaddaşı olan qüvvətli bir şəxsiyyət, sözün həqiqi mənasında kompüter insandır" (R.Reyqan).***

***"O nəinki Azərbaycanı və Amerikanı, bütün dünyanı idarə edə bilər" (B.Klinton).***

Jak Şirak isə ***"Heydər Əliyev dünya prezidentlərinin patriarxıdır"*** demişdir.

Bülənd Ecevit ***"Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz, Heydər Əliyev Atatürk qədər qüdrətli bir türkdür. Heydər Əliyev min ildən bir yetişən dahilərdəndir".***

Onun gücü dövlətçilikdə idi: "Xalq mənim dayağım, gücüm, inamımdır" deyən Heydər Əliyev haqqında deyilənlər bu fikrin əyani sübutudur.

XX əsrin sonunda mürəkkəb və ziddiyyətli bir siyasi şəraitdə ictimai və iqtisadi prosesləri düzgün qiymətləndirərək, böyük dövlətlərin regionda olan maraqlarının balansının təmin olunması, Azərbaycanda milli maliyyənin formalaşması, onun beynəlxalq maliyyə və iqtisadi münasibətlərdə yaxından iştirakı, böyük həcmdə xarici sərmayənin investisiya şəklində ölkə iqtisadiyyatına qoyulması ilk dəfə Heydər Əliyev tərəfində işlənib hazırlanmış və 1994-cü ildə 15 dövlətin 33 şirkətinin iştirakı ilə imzalanmış "Əsrin müqaviləsi" adlanan saziş vasitəsilə olmuşdur.

Bu müqavilənin reallaşması üçün 60 milyard dollar sərmayənin investisiya şəklində qoyuluşu ölkəmizin "ixrac strategiyasının" əsaslı və optimal olmasını şərtləndirdi və nəticədə bu gün ölkəmizin valyuta ehtiyatlarının həcmi xeyli artaraq 50 milyard dollardan çox olmuş, kredit reytinqinin yüksəlməsinə, dünya iqtisadiyyatında və maliyyə sistemində davam edən mənfi halların doğura biləcəyi riskləri azaltmağa və aradan qaldırmağa imkan yaradır.

Ölkəmizin lazımi səviyyədə strateji valyuta ehtiyatlarına malik olması H.Əliyevin "ixrac srtategiyasının nəticəsidir ki, bu da davamlı inkişafın, əsasən də qeyri-neft sektorunun davamlı inkişafının nəticəsi kimi gələcəkdə də baş verə biləcək hər hansı bir maliyyə risklərindən mühafizə sisteminin olduğunun əyani göstəricisidir. Çünki Azərbaycan da digər ölkələr kimi, dünya iqtisadiyyatının və beynəlxalq maliyyə münasibətlərinin bir subyektidir.

XX əsrdə ölkəmizin ən böyük nailiyyətlərindən biri elmin və təhsilin davamlı inkişafı olmuşdur. Azərbaycanın inkişafının mühüm dövrü kimi səciyyələndirilən bu dövr 70-80-ci illərdə xalqımızın qəlbində, düşüncəsində illərlə yığılıb qalmış milli ideyanın, müstəqillik ideyalarının canlanmasına zəmin yaratdı.

Bu illərdə dəyərli təhsil ənənələrindən biri gənclərin respublikamız üçün daha zəruri olan ixtisaslara yiyələnməsindən ötrü SSRİ-nin ali məktəblərinə göndərilməsi idi. Bu yolla respublikamızın elmi və kadr potensialının yüksəldilməsi ilə yanaşı, daha qabiliyyətli gənclərimiz vasitəsilə xalqımızın mənəvi-əxlaqi dəyərlərinin öyrənilməsi kimi vacib məsələ də yerinə yetirildi. Ölkədən kənarda təhsil alan gənclərimizi daim diqqət mərkəzində saxlayan Heydər Əliyev onları "Azərbaycanın milli sərvətləri" adlandırırdı və bu tarixi həqiqətləri belə etiraf edirdi: ***"Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 1970-ci ildən başlamışıq. Mən də bu gün çox böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu şəxsən mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyi barədə düşünmüşəm, həmin illərdən başlayaraq gələcəyimiz haqqında düşünürdüm. Zaman keçdi, artıq biz XX əsrin son illərini yaşayırıq. İndi isə sizinlə görüşərək və bu problemlərlə daim şəxsən məşğul olaraq Azərbaycanın XXI əsri haqqında düşünürəm".*** Məhz bunun nəticəsidir ki, müstəqillik qazandıqdan sonra da azərbaycanlı gənclərin xarici ölkələrin nüfuzlu ali universitetlərində təhsil alması prosesi daha çox sürətləndi. Bu böyük şəxsiyyətin elmə, təhsilə əsaslanan siyasi kursu, elmə və təhsilə göstərdiyi qayğı və dəstək məhz elə buradan qaynaqlanır və onun əslində həm də bir elm adamı olmasının əyani sübutudur.

Azərbaycan müstəqil və müasir demokratik dövlətə çevrilməsi üçün təhsil və elm strategiyasını işləyib hazırlamış və onu uğurla həyata keçirməyə başlamışdır, həm də xalqın tükənməz potensialını üzə çıxarmaq üçün böyük imkanlar yaratmağa nail olmuşdur. Bu da onun elmə, təhsilə son məqsəd kimi, nəticə kimi deyil, vasitə kimi baxmasından irəli gəlirdi. Hələ 1975-ci ilin 24 sentyabrında Milli Elmlər Akademiyasının 30 illik yubileyində bu elm ocağının "Xalqlar dostluğu" ordeni ilə təltif edilməsi münasibətilə keçirilmiş təntənəli ümumi respublika yığıncağındakı platforma xarakterli çıxışında Heydər Əliyev ölkələrin tərəqqisini nə təbii sərvətlər, nə də ki coğrafi vəziyyət deyil, məhz intellektual kapital, məhz elmin səviyyəsinin müəyyənləş¬dirdiyinə diqqət çəkmişdir.

Heydər Əliyev tərəfindən təsdiq edilmiş təhsil strategiyasına görə, davamlı insan inkişafı fənninin orta ümumtəhsil məktəblərinin proqramlarına daxil edilməsi prosesinə 2001-ci ildə start verilib. 2003-cü ildən Təhsil Nazirliyinin 175 və 688 nömrəli əmrləri əsasında orta məktəblər üçün davamlı insan inkişafına dair ilk tədris proqramı və dərs vəsaiti dərc edilib. Bu sahədə Azərbaycanın birinciliyi barədə məlumat BMT-nin Baş Qərargahı tərəfindən dünyaya yayılıb. Qlobal miqyasda isə bu prosesə 4 il sonra – 2005-ci il martın 1-də BMT (Nyu-York) Baş katibi Kofi Annan və UNESCO-nun Baş direktoru Koişiro Matsuura arasında imzalanan sənədlə təkan verilib.

1998-ci ildə Azərbaycan müəllimlərinin I Qurultayında ***"Təhsil sahəsi xalqımızın bu günü, millətimizin, dövlətimizin gələcəyi üçün ən vacib bir sahədir",*** - deyən Heydər Əliyev təhsilin dinamik inkişafını təmin edən bir çox fərman və sərəncamlar imzaladı. Elmə və təhsilə, onun inkişafına dövlət səviyyəsində qayğı əslində dövlətçiliyin möhkəmləndirilməsi və xalqın milli tərəqqisinə bilavasitə xidmət edən dövlət siyasətinin tərkib hissəsi idi.

31 avqust 1998-ci ildə Heydər Əliyev Azərbaycandan kənarda ali təhsil almış mütəxəssislərin ümumrespublika toplantısında o illəri məmnunluqla xatırlayaraq demişdir: ***"... vaxtilə bu salona 16-17 yaşında daxil olmuş insanlar – siz ötən illərdə böyük həyat yolu keçmişsiniz, formalaşmısınız, püxtələşmisiniz, Azərbaycanın həyatının müxtəlif sahələrində fəaliyyət göstərirsiniz. Bunların hamısının əsası həmin illərdə qoyulubdur. Ona görə də mən sizin hər birinizin həyatında etdiyim xidmətin nəticəsini görərək, bu gün sevinirəm, şadlanıram və iftixar hissi keçirirəm.... Mən 1969-cu il iyulun 14-də Azərbaycana rəhbər seçiləndən sonra dərhal, birinci növbədə təhsil məsələləri ilə məşğul olmağa başladım. ... Mən bu işi başladım, genişləndirdim. Özüm də təsəvvür etmədən gördüm ki, Azərbaycan üçün yeni bir ali məktəb yaratmışıq. Bu nədən ibatərdir? 1969-cu ildə biz respublikamızdan kənarda oxumağa heç 50 nəfər də göndərmədik. 1970-ci ildə 60 nəfər göndərdik. Ondan sonra bunu ilbəil artırdıq. Nəhayət, 1975-ci ildə 600 nəfər, 1977-1978-ci illərdə isə hər il 800-900 nəfər gənc respublikadan kənar ali məktəblərə göndərildi".***

Bu gün istər respublikada, istərsə də xarici ölkələrdə fəaliyyət göstərən həmin mütəxəssislər 1970-ci illərdə əsası qoyulan Heydər Əliyev məktəbinin məzunları, məhz onun kadrlarıdır. Hal-hazırda respublikamızda rəqəmsal universitet kimi tanınan Azərbaycan Dövlət İqtisad Universitetində də həmin kadrların bir çoxu fəaliyyət göstərirlər.

Neft-qaz gəlirlərindən səmərəli istifadə etməklə regional tarazlığın təmin edilməsi istiqamətində müstəsna rol oynayan regional inkişaf üzrə Dövlət Proqramları əhalinin işgüzar fəallığının artırılmasına, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsinə, beynəlxalq tələblərə cavab verən ixracyönümlü və rəqabətqabiliyyətli məhsullar istehsal edən, müasir tələblərə cavab verən yerli istehsal müəssisələrinin yaradılması ölkəmizdə sosial-iqtisadi inkişafın və maliyyə sabitliyinin təmin olunmasına səbəb olmuşdur.

Qəbul olunmuş Dövlət Proqramlarının icrası nəticəsində regionlarda 307 yeni körpü və yol ötürücüsü tikilmişdir. 10 il ərzində 8,3 min kilometr respublika və yerli əhəmiyyətli avtomobil yolları salınmışdır və ya təmir olunmuşdur.

Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu və Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi tərəfindən kənd təsərrüfatı məsələləri istehsalçılarına verilmiş güzəştli kreditlər kənd təsərrüfatı məhsulları istehsalı sahəsində dinamik inkişafın əldə edilməsi üçün əsaslı zəmin yaratmış oldu.

2002-ci il aprelin 25-də yerli, elə həmin il may ayının 14-də xarici iş adamları ilə görüşündə Heydər Əliyev onlara müraciətində demişdir: ***"....Əmin ola bilərsiniz ki, biz Azərbaycan dövləti və şəxsən Azərbaycan prezidenti ölkəmizdə sahibkarlığın inkişafını özümüzüm əsas vəzifələrimizdən biri hesab edirik. Biz Azərbaycanın sosial-iqtisadi inkişafını bilavasitə sahibkarlıqla, onun inkişafı ilə bağlayırıq və sahibkarlığın inkişaf etdirilməsi üçün bundan sonra lazım olan tədbirlərin həyata keçirilməsi ilə məşğul olacağıq. Sizin işinizə qanunsuz müdaxilə edənlərin, sizə mane olanların, qanunsuz olaraq sizdən bəhrələnməyə çalışanların hamısının qarşısını alacağıq".***

***"Ancaq təəsüflər olsun ki, biz indiyə qədər mütəmadi olaraq çox şikayətlər alırıq. Şikayətlərin də əsas məzmunu ondan ibarətdir ki, Azərbaycanda sahibkarlığın inkişafına maneçilik törədən qüvvələr vardır. Bunlar hamısı bizim ümumi iqtisadiyyatımıza, apardığımız siyasətə zərbə vurur. Azərbaycan prezidentinin siyasətinə zərbə vurur. Mən hüquq-mühafizə orqanlarına ayrı-ayrı şirkətlərin, sahibkarların işinə müdaxilə etməyi qadağan edirəm, əsası olmayan yoxlamaların aparılmasını qadağan edirəm....".***

Azərbaycanın bütün sahələrdə qazandığı uğurlar, onun dünyada tanınması, sözün əsl mənasında böyük insan olan Heydər Əliyevin fəaliyyəti ilə bilavasitə bağlı olmuşdur.

Hələ 1998-ci ilin 17 dekabrında 1999-cu ilin dövlət büdcəsi layihəsinin müzakirəsinə həsr olunmuş müşavirədə Heydər Əliyev demişdir: ***"Azərbaycanda özəlləşdirmənin, sahibkarlığın, istehsalın inkişafı bizim strateji yolumuzdur və bu yolla gedərək dövlət büdcəsinin həyata keçirilməsini təmin etməliyik".***

Sahibkarlığa dövlət dəstəyinin təmin edilməsi və gücləndirilməsi və bu fəaliyyətin genişləndirilməsinə nail olmaq üçün 27 avqust tarixli 779 nömrəli Prezident Fərmanı ilə "Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu haqqında" Əsasnamənin və Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi qaydalarının təsdiqlənməsi ilə Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyəti və sahibkarlıq subyektlərinin investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsi mexanizminin yenidən qurulması sahibkarlığın inkişafında əsl dönüş nöqtəsi olmuşdur. Fondun məqsədi Azərbaycan Respulikasında sahibkarlığın inkişafı və əhalinin işgüzarlıq fəaliyyətinin artırılması sahəsində tədbirlərdə iştirak etmək, onlara müəyyən dəstək verməkdən ibarətdir. Ölkədə biznesə başlama qaydalarının sadələşdirilməsi, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi, qanunvericilik bazasının təkmilləşdirilməsi və digər genişhəcmli tədbirlər sayəsində ÜDM-in həcmində özəl sektorun payı xeyli artmışdır.

Statistik Vahidlərin Dövlət Reyestrində qeydiyyatdan keçmiş tam investisiyalı və birgə müəssisələr əsasən Türkiyə (30,4%), Böyük Britaniya (8,6%), Rusiya (6,5%), İran (5,1%), ABŞ (3,7%), Almaniya (1,9%) və digər ölkələrin (43,7%) sahibkarları tərəfindən yaradılmışdır. Eyni zamanda, daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsaitin həcmi ümumi sərmayənin 72,3 faizini təşkil etmişdir. Ölkə iqtisadiyyatında kiçik sahibkarlığın dinamik inkişafı prosesi bu gün də davam edir.

Ölkədə fəaliyyət göstərən hüquqi şəxslərin 80,5%-ni kiçik müəssisələr təşkil edir. Bu böyük nailiyyəti sahibkarlara göstərilən dövlət qayğısının nəticəsi kimi qiymətləndirmək lazımdır. Hal-hazırda kiçik və orta sahibkarlıq subyektlərinin sosial-iqtisadi inkişafda oynadığı rol nəzərə alınaraq, dövlət kiçik və orta müəssisələrə hərtərəfli qayğı göstərilməsini daima nəzarətdə saxlayır.

İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bu kateqoriya müəssisələrə edilən maddi və mənəvi yardımlar arasında dövlətin güzəştli maliyyə dəstəyi xüsusi yer tutur, müasir şəraitdə onsuz sahibkarlığın dinamik inkişafına nail olmaq qeyri-mümkündür. Bu məqsədlə maliyyə vəsaitlərinin kredit şəklində güzəştli şərtlərlə daha tez gəlir əldə etmək imkanı olan və rəqabətin inkişafına təkan verən sahələrin subyektlərinə verilməsi məqsədəmüvafiq və zəruridir.

Məsələn, ABŞ-da sahibkarlara verilən kreditlər, bir qayda olaraq təqdim olunduğu sahədən asılı olaraq qısa və uzunmüddətli olur. Eyni zamanda, verilən kreditlərin məbləği nəinki verilən sahələr üzrə fərqləndirilir, hətta vəsaiti alan müəssisənin sahibinin qadın, yoxsa kişi olması da nəzərə alınmaqla yanaşı, dövlət kiçik və orta sahibkarlıq subyektləri ilə bağlı maliyyə siyasəti həyata keçirərkən regional amili də əsas götürür. Çünki regionlarda sosial-iqtisadi inkişafı təmin etmək üçün sahibkarlığın inkişafına təkan vermək ən əlverişli yol hesab olunur və regionlarda sahibkarlığın inkişaf etdirilməsi təbii ki, ayrı-ayrı bölgələrdə sosial problemlərin aradan qaldırılmasını təmin edə bilir.

Son illərdə iqtisadiyyatda makroiqtisadi sabitlik qorunub saxlanmış, iqtisadiyyatın diversifikasiyası və sahibkarlığın inkişafı istiqamətində mühüm islahatlar aparılmışdır. Dövlət və yerli şirkətlər, eyni zamanda xarici şirkətlərin Azərbaycana marağını nəzərə alaraq, böyük həcmdə investisiya qoyuluşunu cəlb edə bilməsi nəticəsində iqtisadiyyata yönəldilmiş cəmi investisiyalar 10 il ərzində xeyli artaraq, təqribən 200 milyard manatdan çox olmuşdur. Bu da Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir.

Heydər Əliyevin sosial-iqtisadi, regional və qlobal təhlükəsizlik prinsiplərinə əsaslanan milli təhlükəsizlik strategiyası respublikanın dünya birliyinə inteqrasiyası istiqamətində mühüm nəticələr verdi və ölkəmizin beynəlxalq iqtisadi-siyasi və beynəlxalq əlaqələr sistemində yeni mərhələnin əsasını qoydu.

**Həsənli Mirələm Xası oğlu,**
**iqtisad elmləri doktoru, professor**
**Azərbaycan Dövlət İqtisad Universiteti, Maliyyə və audit kafedrası**

# Kəlbəcərdə nəcib metalların kəşfiyyatı aparılır




"Bu barədə "AzərGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov 2023-cü ilin fəaliyyət yekunlarına həsr olunmuş mətbuat konfransında deyib".
"AzerGold" QSC 2022-ci ildən Kəlbəcər rayonunun inzibati ərazisində yerləşən "Tutxun" nəcib metal təzahürləri sahəsində mərhələli kəşfiyyat-axtarış işlərinə başlayıb. Axtarış işləri yalnız minalardan təmizlənmiş sahələrdə aparılır.
"AzerGold" "Tutxun" sahəsində 273 kvadrat kilometr ərazidə tədqiqat aparmağı planlaşdırsa da, 2023-cü ilin sonuna qədər minalardan təmizlənmiş 57 kvadrat kilometr ərazidə geoloji axtarış işlərini icra edib. İlkin nəticələr kafidir, tədqiqatlar davam etdirilir. Bu il daha 32 kvadrat kilometr sahənin geoloji axtarış işləri üçün ayrılması nəzərdə tutulub. Hazırda ərazi Minatəmizləmə Agentliyinin (ANAMA) mütəxəssisləri tərəfindən mina və digər partlamamış hərbi sursatlardan təmizlənir", - deyə o əlavə edib.

# AZPROMO: "Made in Karabakh" əmtəə nişanının layihəsi hazırlanıb

"Made in Karabakh" əmtəə nişanının layihəsi hazırlanıb.
Bu barədə AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev ötən ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında deyib.



O qeyd edib ki, "Made in Azerbaijan" və "Made in Karabakh - heart of Azerbaijan" əmtəə nişanlarına dair istifadə qaydaları layihəsi hazırlanaraq müvafiq strukturlara rəy verilməsi üçün təqdim edilib.
"Ötən il Azərbaycan şirkətlərinin "Made in Azerbaijan" vahid ölkə stendi ilə 5 beynəlxalq sərgidə iştirakı təmin olunub. Bu ilin yanvarında İraqda "Yaşıl həftə" sərgisində Azərbaycan öz məhsulları ilə təmsil olunub. Bu il Yaponiya, Koreya və Almaniyada keçiriləcək sərgilərdə də Azərbaycanın iştirakı nəzərdə tutulur", - deyə Yusif Abdullayev vurğulayıb.
O bildirib ki, ötən il 110 ölkəyə qeyri-neft məhsullarının ixracı həyata keçirilib.
*"Ötən il Azərbaycanın qeyri-neft məhsullarının ixracında rekord qeydə alınıb. Belə ki, 2023-cü ildə Azərbaycandan 3,348 milyard dollar dəyərində qeyri-neft məhsulları ixrac olunub ki, bu da 2022-ci illə müqayisədə 9,8 faiz çoxdur. Ən çox məhsul ixrac olunan ölkələr sırasında ilk yerdə Rusiya, ikinci yerdə Türkiyə, üçüncü yerdə isə Macarıstan qərarlaşıb".*

# Dövlət şirkəti ləğv edildi

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin və "Azərsığorta" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 iyul tarixli 1751 nömrəli Fərmanının ləğv edilməsi barədə" Fərman imzalayıb.
Marja.az xəbər verir ki, Fərmana əsasən, Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkəti ləğv edilib. Qeyd edilir ki, "Azərsığorta" Açıq Səhmdar Cəmiyyətinin fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 iyul tarixli 1751 nömrəli Fərmanı ləğv edilsin.
Azərbaycan Respublikasının Nazirlər Kabineti və Azərbaycan İnvestisiya Holdinqi bu Fərmandan irəli gələn məsələləri həll etsinlər.

# ASCO-nun gəmi təmiri müəssisələrində 103 gəmi təmir olunub




"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin (ASCO) "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodunda (ZGTTZ) və "Bibiheybət" Gəmi Təmiri Zavodunda (BGTZ) ötən il, ümumilikdə, müxtəlif tipli 103 gəmi təmir olunub.
ASCO-dan bildirilib ki, təmir olunan gəmilərdən 27-si "Zığ" GTTZ-nin, 76-sı "Bibiheybət" GTZ-nin payına düşüb.
Ötən il "Zığ" GTTZ-də təmirə dayanan gəmilərdən 7-si əsaslı, 11-i tərsanə, 9-u cari təmir edilib.
"Bibiheybət" GTZ-də təmirə dayanan gəmilərdən 17-si əsaslı, 42-si tərsanə, 17-si cari təmir olunub.
Təmir prosesi ASCO-nun yüksəkixtisaslı mütəxəssislərinin iştirakı ilə beynəlxalq konvensiyanın tələblərinə uyğun həyata keçirilib.
Qeyd edək ki, ASCO-nun həm "Zığ" Gəmi Təmiri və Tikintisi Zavodu, həm də "Bibiheybət" Gəmi Təmiri Zavodu geniş həcmdə peşəkar gəmi təmiri və dəniz mühəndislik xidmətləri təqdim edir. Zavodların əsas fəaliyyət istiqaməti gəmiləri və texniki avadanlıqları təmir etməkdən və sifarişlər əsasında gəmilər üçün müxtəlif növ ehtiyat hissələri hazırlamaqdan ibarətdir.

# RƏQABƏT DAYANIQLI İNKİŞAFIN MÜHÜM AMİLİ KİMİ

İqtisadiyyatın dayanıqlı inkişafının təmin olunmasında yüksək rəqabətqabiliyyətliliyə malik olmaq mühüm əhəmiyyət kəsb edir. Çünki rəqabətqabiliyyətlilik iqtisadi səmərəliliyin qiymətləndirilməsinin əsas xüsusiyyətlərindən biri olmaqla, iqtisadiyyatın beynəlxalq inteqrasiyasının əsas göstəricilərindən və bir ölkənin dünya ölkələri içərisində gücünü müəyyən edən əsas meyarlardan hesab olunur.



Azərbaycan Respublikasının Auditorlar Palatası Aparatının rəhbəri Qəşəm Bayramov




Əlamətdardır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2024-cü ilin 23 yanvar tarixində «Azərbaycan Respublikası Rəqabət Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında» Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1051-VIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə Fərman imzalanmışdır.
Azərbaycan Respublikasının Rəqabət Məcəlləsi 12 fəsildən və 84 maddədən ibarət olmaqla çox böyük əhəmiyyətə malikdir.
Azərbaycan Respublikasının Rəqabət Məcəlləsinin qəbul edilməsi və tətbiqi Azərbaycanda rəqabət mühitində və antiinhisar siyasətində rəqabəti və azad sahibkarlığı təşviq etməklə, həm iqtisadiyyatın inkişafını, həm də istehlakçıların rifahını, həmçinin məhsul və xidmətlərin keyfiyyətini təmin edəcəkdir.
Azərbaycan Respublikasının Auditorlar Palatası və İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr edilmiş «Rəqabət dayanıqlı inkişafın mühüm amili kimi» mövzusunda keçirilmiş beynəlxalq elmi-praktik konfransın materialları bu günlərdə çap olunmaqla işıq üzü görmüşdür.
Kitabda konfransda təmsil olunmuş qurumların adları, ön söz, konfrans iştirakçılarının çıxış və tezisləri, konfransın aktuallığı, mövcud nöqsanlar və zəifliklər, konfrans iştirakçıları tərəfindən ölkə iqtisadiyyatında haqsız rəqabət və dempinq hallarının aradan qaldırılması, sağlam rəqabət mühitinin formalaşdırılması üçün müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsi və bu sahədə mövcud olan problemlərin aradan qaldırılması məqsədilə 86 tövsiyə öz əksini tapmışdır.
Tövsiyələr, əsasən, auditor xidməti bazarında və vergi sistemində haqsız rəqabətə qarşı mübarizəyə, iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətlərinə, rəqabətqabiliyyətliliyin tədqiqi və qiymətləndirilməsinə, rəqabətqabiliyyətliliyin və dayanıqlılığın rəqəmsal transformasiya texnologiyaları vasitəsilə yüksəldilməsinə, iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin formalaşdırılmasında ali təhsil sisteminin rolu və prioritet vəzifələrinə, büdcə xərclərinin təkmilləşdirilməsinin rəqabət mühitinə təsirlərinə, istehlak bazarında rəqabət üstünlüyünün təmin edilməsində marketinqin roluna dair verilmişdir.
Tədbirdə ölkəmizin dövlət qurumlarının, sahibkarlıq subyektlərinin, qeyri-hökumət təşkilatlarının, aparıcı elm-təhsil müəssisələrinin, habelə bir sıra ölkələrin peşəkar audit və mühasibatlıq qurumlarından ibarət 100-ə yaxın nümayəndə iştirak etmişdir.
Konfrans çərçivəsində rəqabətədavamlı milli iqtisadiyyatın yaradılması, rəqabətlilik mühitinin təminində korrupsiyaya qarşı mübarizənin əhəmiyyəti, rəqəmsal iqtisadiyyatda rəqabət siyasətinə rəqəmsal baxış, dost vergi sistemi inkişafın əsas amili kimi, peşəkar xidmətlər sahəsində rəqabətlilik, Azərbaycanda auditor xidməti bazarında rəqabət, istehlak bazarında rəqabət üstünlüyünün təmin edilməsi, müəssisələrin rəqabətqabiliyyətliliyinin və dayanıqlılığının rəqəmsal transformasiya texnologiyaları vasitəsi ilə yüksəldilməsi, ölkə iqtisadiyyatının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi istiqamətləri, haqsız rəqabətlə mübarizə iqtisadi inkişaf amili kimi, Azərbaycanda maliyyə inklüzivliyi və iqtisadi artım məsələlərinə dair məruzələr dinlənilib, təcrübə mübadiləsi və geniş müzakirələr aparılıb.
Konfransda müzakirələr bir daha sübut etdi ki, azad iqtisadiyyatın ən mühüm prinsiplərindən biri də rəqabətqabiliyyətliliyinin təmin edilməsidir. Vergi, gömrük, dövlət satınalmaları və iqtisadi subyektlərlə qarşılıqlı əlaqədə olan digər dövlət sektorlarında şəffaflıq və ədalətliliyin təmini rəqabət mühitini gücləndirən amillərdir. Öz növbəsində sahibkarların da fəaliyyətlərini qanun çərçivəsində qurmaları güclü iqtisadiyyat üçün əsaslardan biridir. Sağlam rəqabətli iqtisadiyyat həm xalqın rifah səviyyəsini yüksəldir, həm də xaricdən ölkəyə investisiya axınının miqyasını artırır.
Eyni zamanda, beynəlxalq rəqabət qlobal iqtisadiyyatda lider mövqeyə nail olmaq, onu saxlamaq və ölkənin beynəlxalq statusunu yüksəltmək istəyini nəzərdə tutur. İqtisadi modernləşmə iqtisadi amillərdə baş verən dəyişikliklərin məcmusudur. Aydındır ki, iqtisadi modernləşmə, əsasən, istehsal üsulu, əsas texnologiya və aparıcı sənayelər tərəfindən üstünlük təşkil edir. Rəqəmsal iqtisadiyyat istehsal amillərini optimallaşdırmaq və istehsal strukturunun modernləşdirilməsini təşviq etməklə iqtisadi strukturun transformasiyasını və modernləşdirilməsini həyata keçirir.
Təsdiqlənmiş Rəqabət Məcəlləsinin ehtiva etdiyi müddəalar bir daha göstərir ki, iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması makroiqtisadi sabitliyin qorunması, monetar və fiskal siyasətin koordinasiyasının gücləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması və özəl təşəbbüsün dəstəklənməsi, maliyyə xidmətləri bazarının inkişaf etdirilməsi, xarici ticarət və investisiya siyasətinin təkmilləşdirilməsi kimi istiqamətləri özündə cəmləşdirir.
Beynəlxalq elmi-praktik konfrans çərçivəsində İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti və Auditorlar Palatası arasında Əməkdaşlıq sazişi imzalanıb. Sazişə əsasən, tərəflər auditor xidmətlərinin dövlət satınalmaları zamanı rəqabət prinsiplərinin təşviqi və bu istiqamətdə sahibkarlıq subyektlərinin maarifləndirilməsi məqsədilə birgə tədbirlər həyata keçirəcək, metodiki təlimatlar hazırlayacaq və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlıq edəcəklər.

# Yerli və beynəlxalq bazarlarda 68,1 min unsiya qızıl, 119,8 min unsiya gümüş satılıb

Bu barədə "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov ötən ilin yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş mətbuat konfransında deyib.
Onun sözlərinə görə, 2022-ci illə müqayisədə ümumi qızıl satışı həcmində 7 faiz artım qeydə alınıb.
*"Qeyd edilən ümumi satış həcmindən qızıl üzrə 62,1 min unsiya, gümüş üzrə isə 90,8 min unsiya beynəlxalq bazarlarda realizə edilib. Daxili bazarın tələbatına uyğun olaraq xammal və hazır məhsul formasında 6 min unsiya qızıl, 29,1 min unsiya gümüşün satışı həyata keçirilib. Beləliklə, 2017-2023-cü illər üzrə ümumi satış (daxili və xarici bazar bir yerdə) göstəriciləri 416 min unsiya qızıl, 853 min unsiya gümüş təşkil edib"*, - deyə Zakir İbrahimov vurğulayıb.





# Azərbaycan tarixinin parlaq səhifəsi: reallıqlar və perspektivlər

Azərbaycan xalqının 2003-cü ildə taleyüklü məsələdə öz düzgün seçimini etməsini, tariximizin yeni mərhələsinin ən mühüm qərarını doğru qəbul etməyi bacarmasını tarix bir daha sübut etdi.

Azərbaycan bu gün sürətli inkişaf dövrünü yaşayır və ümummilli liderin uğurlu və uzaqgörən daxili və xarici siyasəti davam etdirilir. Son 20 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkə iqtisadiyyatının çiçəklənməsinə xidmət edən böyük işlər görülüb, nəhəng infrastruktur layihələri həyata keçirilib, Azərbaycanda infrastrukturun o cümlədən nəqliyyat sisteminin yenidən qurulması ilə ölkəmizin dünyaya çıxışı təmin edilib.

Azərbaycanda son 20 ildə xalq-iqtidar birliyi uzunmüddətli inkişaf strategiyasının müəyyənləşdirilməsinə geniş imkanlar açıb və bunun nəticəsidir ki, hazırda ölkəmiz nəinki Cənubi Qafqaz regionu, eləcə də dünyada güclü ölkə kimi bütün sahələrdə öz sözünü deyir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycan vətəndaşlarına tarixi müraciətində "mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" deməklə əsasını qoyduğu siyasəti davam etdirə biləcək liderin dəqiq ünvanını göstərmişdi. Ulu Öndərimiz Heydər Əliyevin arzu və vəsiyyətini əməllərində gerçəkləşdirərək, Prezident İlham Əliyev ümummilli liderimizin Azərbaycan xalqı üçün xilaskarlıq və rifah yolunu qətiyyətlə davam etdirmiş, doğma Azərbaycanımızı qalib ölkəyə çevirmişdir. Son 20 ildə iqtisadi artım dinamikasına dair rəqəmlər bütün mənzərini aydın göstərir. Əsas makroiqtisadi göstərici olan Azərbaycanın ümumi daxili məhsulu real ifadədə 3,6 dəfə artmışdır.

Bu, son 20 ildə qlobal miqyasda əldə olunan ən yaxşı iqtisadi nailiyyətlərdən biridir. Ölkə başçısı tərəfindən iqtisadiyyatın şaxələndirilməsi milli iqtisadiyyat qarşısında əsas çağırış olaraq qoyulmuş və bu istiqamətdə görülən işlər nəticəsində ötən 20 il müddətində qeyri-neft sektoru üzrə ÜDM 3,4 dəfə artmışdır. Dövlət büdcəsinin xərcləri 30 dəfə artmışdır. 2003-cü ildə adambaşına düşən büdcə xərcləri 150 manatdan az idisə, hazırda bu rəqəm 3500 manatdan çoxdur. Xarici ticarət dövriyyəsi 10,8 dəfə, o cümlədən ixrac 16,1 dəfə artmışdır. 2003-cü illə müqayisədə 2023-cü ildə adambaşına düşən ÜDM 3 dəfəyə yaxın artaraq, 13 256 manat təşkil etmişdir. Aparılan çoxşaxəli iqtisadi siyasət nəticəsində davamlı iqtisadi inkişaf təmin olunmuşdur. Birbaşa xarici borcun həcmi azalaraq hazırda ümumi daxili məhsulun 9,3 faizini təşkil edir. Azərbaycanın xarici valyuta ehtiyatları son 20 ildə 47 dəfədən çox artaraq 66 mlrd. ABŞ dollarını keçmişdir və hazırda birbaşa xarici borcu 10 dəfə üstələyir. Bu dövr ərzində sərmayələrin ümumi həcmi 300 mlrd. ABŞ dollarından çox olmuşdur ki, onun da 190 mlrd. dolları qeyri-enerji sektoruna yatırılmışdır. Ötən dövrdə qeyri-neft sektorunun davamlı inkişafını təmin etmək, innovativ və yüksək texnologiyalara əsaslanan sənaye müəssisələrini təşkil etmək, bu sahədə sahibkarlığı dəstəkləmək və istehsal sahəsində məşğulluğu artırmaq məqsədilə ölkədə yüzlərlə istehsal və emal müəssisələri, iri sənaye mərkəzləri, parkları və məhəllələri yaradılmışdır. Qeyri-neft sektorunun prioritet istiqamətlərindən olan kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahəsinin inkişafı ötən dövr ərzində diqqət mərkəzində saxlanılmışdır. Görülmüş məqsədyönlü tədbirlər nəticəsində son 20 ildə qeyri-neft ixracı 8 dəfədən çox artmışdır. Bu dövr ərzində respublika üzrə 51 aqropark yaradılmışdır.İnfrastruktur layihələrinin icrası kimi ölkənin ümumi elektrik enerjisi sisteminə daxil olan yeni elektrik stansiyaları tikilib istifadəyə verilmiş, mövcud yarımstansiyalar yenidən qurulmuş və yeniləri inşa edilmişdir. Hər il dövlət büdcəsi tərtib edilərkən büdcənin sosial yönümlü olmasına xüsusi diqqət yetirilmişdir. Bunun nəticəsidir ki, 2003-2023-cü illərdə sosial təyinatlı büdcə xərcləri 20 dəfədən çox artmışdır.Bu dövrdə orta aylıq nominal əməkhaqqı 12 dəfə, minimum əməkhaqqı isə 38 dəfədən çox artmışdır.

Son 20 ildə orta aylıq pensiya 18 dəfəyə yaxın, minimum pensiya məbləği isə 14 dəfə yüksəlmişdir. İqtisadi artımın bərpasında vergi siyasətinin iqtisadi siyasətin mühüm tərkib hissəsi kimi maliyyə dayanıqlığının təmin edilməsində mühüm rolu olmuşdur . Əgər dövlət büdcəsinə vergi daxilolmalarının həcmini 2002-ci illə müqayisə etsək, iqtisadiyyatımızla yanaşı, dövlətimizin maliyyə imkanlarının da nə qədər artdığının şahidi ola bilərik. 2002-ci illə müqayisədə vergi daxilolmalarında artım 23 dəfəyə yaxın, qeyri-neft-qaz sektorundan daxilolmalar isə 23,4 dəfəyədək artıb. Regionların sosial-iqtisadi inkişafının təmin edilməsi nəticəsində bölgələrdən daxilolmalarda son 20 il ərzində 35,8 dəfə artım olub. Vergi daxilolmalarının əhəmiyyətli artımı ölkəmizin maliyyə imkanlarının genişlənməsinə mühüm dəstək olub. Azərbaycan iqtisadiyyatının böyüməsi işgüzar aktivliyin, həmçinin sahibkarların sayının ildən-ilə artması ilə nəticələnib. Əgər 2002-ci ildə ölkədə cəmi 180 minə yaxın sahibkarlıq subyekti mövcud idisə, 2023-cü ildə qeydiyyatda olan vergi ödəyicilərinin sayı 1,4 milyondan çox olmuş, aktiv vergi ödəyicilərinin sayı isə 712 mini ötmüşdür.

Möhtərəm Prezidentimiz İlham Əliyev Azərbaycanın iqtisadi və hərbi qüdrətinin, beynəlxalq nüfuzunun gücləndirilməsi yolunda böyük inam və qətiyyətlə çalışaraq, nəhayət üçrəngli bayrağımızın 30 ildən sonra Qarabağda, Şərqi Zəngəzurda yenidən dalğalanmasına nail oldu. Azərbaycan qalib ölkəyə, xalqımız qalib xalqa çevrildi. Bu Qələbə sayəsində regionda yeni reallıqlar yarandı. Qələbədən sonrakı üç il müddətində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonundakı bərpa-quruculuq işlərinə dövlət büdcəsindən 7 milyard ABŞ dolları vəsait ayrılmışdır. Böyük Qayıdışa dair I Dövlət Proqramı qəbul edilib və uğurla icra edilir.

Mövcud reallıqları təhlil edərək, belə bir nəticəyə gəlirik ki, 7 fevral 2024-cü ildə keçiriləcək prezident seçkilərində cənab İlham Əliyevə səs verməklə Azərbaycanın daha da parlaq gələcəyinə səs vermiş oluruq.

**Zöhrab Paşayev, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Maliyyə və audit kafedrasının dosenti, i.f.d.**

# YENİ ƏSRİN YENİ LİDERİ CƏNAB İLHAM ƏLİYEVİN (2003-2023-CÜ İLLƏR) UĞURLU SOSİAL-İQTİSADİ SİYASƏTİ

Dünya xalqlarını məşhurlaşdıran təkcə onların zəngin təbii sərvətləri deyil, həm də onların mədəniyyətləri, dünya siyasətində mühüm rol oynayan fenomen şəxsiyyətləridir. Dünya üzrə nadir şəxsiyyətlərdən sayılan Ulu Öndər Heydər Əliyev müasir, müstəqil Azərbaycan dövlətinin banisi olmuşdur. O, təkcə güclü dövlət yaratmaq deyil, bununla yanaşı özündən sonra çoxşaxəli islahatların varisliyini uğurla təmin edə biləcək peşəkar lider də yetişdirdi. "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - deyən Ulu Öndər xalqımıza özünün layiqli davamçısını təqdim etdi. Cənab İlham Əliyevin 20 illik prezidentlik fəaliyyəti bu fikrin qəti qənaət olduğunu sübut etdi. Azərbaycan Prezidenti İlham Əliyev bu gün dünyanın siyasi sistemində özünəməxsus yeri ilə seçilir. Onunla hesablaşırlar, ona hörmət və ehtiramla yanaşırlar. Mötəbər beynəlxalq təşkilatların – BMT-nin, NATO-nun, ATƏT-in kürsülərində inamlı, cəsarətli, məntiqi çıxışları ilə dünya arenasının diqqətini özünə cəlb etmişdir. Milli mənafeləri bütün səviyyələrdə qətiyyətlə qoruyaraq, müstəqil xarici siyasət yürüdür. Qlobal böhranlardan çıxış yolları axtarışında onun fikrinə, rəyinə hörmətlə yanaşılır. Prezident İlham Əliyev düşünülmüş islahatları, müdrik qərarları və cəsarətli addımları ilə Azərbaycan xalqının həyatına yeni ruh, yeni nəfəs gətirib. Azərbaycanın yeni əsrdə yeni lideri olan möhtərəm cənab İlham Əliyevin 2003-2023-cü illər ərzində gördüyü işlər danılmazdır. Tariximizə möhtəşəm 20 il kimi yazılan ötən dövrdə Azərbaycan Respublikası misilsiz inkişaf yolu keçmişdir. Xalqımız 2008, 2013 və 2018-ci illərdə keçirilən prezident seçkilərində də cənab İlham Əliyevi öz müstəqil dövlətinə yenidən rəhbər seçdi. "Cənab İlham Əliyevin vətənə, xalqa və dövlətçiliyə misilsiz xidmətinin 20 ili"nə nəzər saldıqda bu illər ərzində onun fəaliyyətinin möhtəşəmliyinin bir daha şahidi oluruq.

2003-cü il 24 noyabr tarixli Fərmanla "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında", 2004-cü ildə Azərbaycan Respublikasında regionların sosial-iqtisadi inkişafı üzrə dörd dövlət proqramı qəbul edilmişdir. Bu proqramlar çərçivəsində 100 mlrd. manatdan çox investisiya qoyulmuş, regionlarımız başdan-başa dəyişmişdir.

2006-cı il iyulun 13-də Heydər Əliyevin adını daşıyan nəhəng Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin açılışı oldu və həmin il dekabrın 15-də "Şahdəniz" yatağında ilk quyu istismara verildi. Davamlı olaraq "Ümid", "Babək" və "Abşeron" yataqlarının kəşfi Azərbaycanın böyük qaz ehtiyatlarına sahib olduğunu təsdiq etdi. Bununla da, Azərbaycanın təbii resurslar tarixində yeni bir səhifə açıldı.

2014-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin 20-ci ildönümündə Səngəçalda "Cənub Qaz Dəhlizi" layihəsinin təməli qoyuldu, gərgin fəaliyyəti və ardıcıl səyləri ilə Bakı-Tbilisi-Ceyhan neft kəmərindən sonra Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP kimi transmilli qaz arteriyaları yarandı. Bununla da, dünyanın enerji xəritəsində yeni səhifə formalaşmış oldu.

2017-ci il sentyabrın 14-də Prezident İlham Əliyevin şəxsi səyləri nəticəsində Xəzər dənizinin Azərbaycan sektorunda nəhəng Azəri-Çıraq-Günəşli neft yataqları blokunun 2050-ci ilə qədər işlənilməsində yeni dövr başlandı.

2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsi, 2018-ci ildə Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin və 2023-cü ildə Ələt Azad İqtisadi Zonasının açılışı ilə Azərbaycan və Bakı regionun ən böyük ticarət və logistika mərkəzinə, Şimal-Cənub, Şərq-Qərb və Orta Dəhliz nəqliyyat marşrutlarının mərkəzinə çevrilərək, irimiqyaslı neft və qaz layihələri həyata keçirildi.

2020-ci il dekabrın 31-də Cənub Qaz Dəhlizinin son seqmenti olan Trans-Adriatik boru kəmərinin istismara verilməsi ilə Azərbaycan qazının tarixdə ilk dəfə olaraq Avropaya ixracına start verildi.

2023-cü ildə 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm zəfər və 1 günlük lokal antiterror tədbirlərinin uğurlu nəticəsi 30 ildən artıq müddətdə Ermənistanın işğal altında saxladığı ərazilərimizin qapılarını Böyük Qayıdışa açmışdır.

Əminliklə deyə bilərik ki, həmişə olduğu kimi, bundan sonra da uzun illər xalqımız Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, böyük uğurlara imza atacaq.

**Kifayət Xudaverdiyeva, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Maliyyə və Audit kafedrasının dosenti, BMT-nin Zaqafqaziya üzrə sülhməramlı səfiri**

# Qələbəyə aparan yol!

*Qarabağ Azərbaycandır!*

İlk olaraq qeyd etmək istərdim ki, "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" ifadəsini bizə yaşadan Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə öz minnətdarlığımızı bildirir, ömrümüzün, həyatımızın sonuna qədər qəlblərimizdə, yaddaşlarımızda hər an ehtiram, hörmət, minnətdarlıq hissi ilə yad edəcəyimiz, unutmayacağımız Şəhidlərimizə uca Allahdan rəhmət diləyir, bu yolda canını qurban verməyə hazır olan qazilərimizə Allahdan can sağlığı və qışın soyuğunda, yayın isti, qızmar çağında sərhədlərimizi qoruyan əsgərlərimizə səbir, iradə, uğur arzu edirik.

Həqiqətən də, II Qarabağ müharibəsində Azərbaycanımızın Qələbə qazanması dövlətimiz üçün mühüm əhəmiyyət kəsb etdi. Azərbaycanın qüdrətli ordusu cənab İlham Əliyevin rəhbərliyi ilə əbədi və əzəli torpağımız olan Qarabağımızı erməni işğalından azad etdi. Düşmən anladı ki, Azərbaycan artıq əvvəlki Azərbaycan deyil. Artıq Azərbaycanın güclü, yenilməz və hər zaman var olan, qələbə yaşatmaq gücünə malik, güclü silahlarla silahlanmış əsgər və ordusu var.

Azərbaycan dövləti müstəqil, demoktarik, suveren dövlətdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev düzgün siyasət yürüdür. Məhz bu siyasətin nəticəsidir ki, 2020-ci il 27 sentyabr tarixindən Azərbaycan ordusu böyük əzmkarlıq, şücaət göstərərək, qələbə əldə etdi. Düşmən tərəf 44 günlük müharibə zamanında hər cür mənfur siyasətə əl atdı, uşaq, körpə, yaşlı, qadın bilmədən mülki əhaliyə, mənzillərə atəş açdı, bombaladı. Məhz bu rəzilliklər, bu haqsızlıqlar düşmənin əsl simasını, iç üzünü bir daha təsdiqlədi. Bu təcavüzün, bu terrorun qarşısında dövlətimiz dünyanın beynəlxalq hüquq normalarına və müharibə qaydalarına tam əməl edərək, səbirlə, əzmkarlıqla ədalətli savaş apardı. Bir elm misalında deyildiyi kimi, güc birlikdədir. Azərbaycan xalqı, Azərbaycan milləti cənab Prezidentimiz İlham Əliyevin "Bu yumruq düşmənin başını əzən yumruqdur!" şüarını, ifadəsini əldə dəstək tutaraq, bu yumruq altında həmrəylik göstərib, birləşərək Qələbə qazandı.

Onu da unutmaq olmaz ki, Prezident İlham Əliyev dəfələrlə çıxışlarında qeyd etmişdir ki, bu müharibəni sülh yolu ilə həll etmək istəyirdi. Həqiqətən də, cənab prezidentimiz böyük qələbəni Azərbaycan xalqına bəxş etməklə yanaşı, Ulu Öndərimiz, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin vəsiyyətini də layiqli şəkildə yerinə yetirmiş oldu.

Əldə edilən Qələbə Azərbaycan xalqının tarixinə, xalqımızın, insanlarımızın yaddaşına qızıl hərflərlə yazılaraq, tarixə həkk olunaraq dünya ölkələrinə sərgilədi. Bu qələbə, bu zəfər hələ əsrlər boyu, illər boyu qəlbimizdən, yaddaşımızdan, hafizəmizdən silinməyəcək və nəsillərdən nəsillərə ötürüləcək.

Qələbəmizin bariz nümunəsindən biri də odur ki, son illərdə ölkəmizdə həyata keçirilən işlər beynəlxalq səviyyədə gücümüzü şərtləndirdi. Azərbaycanın iqtisadi gücü qələbəni əldə etmək üçün təkan oldu. Azərbaycanda müdafiə sənayesinin yaradılması, transmilli layihələrin işlənib hazırlanması və s. kimi uğurlu layihələrin həyata keçirilməsi iqtisadiyyatımızın dinamik inkişafından xəbər verdi. Azərbaycanda həyata keçirilən məhz bu təşəbbüslər təkcə xalqımızın yox, dünya ölkələrinin də maraqlarını təmin etməyə şərait yaratdı.

Onu da unutmaq olmaz ki, dünyanın bütün aparıcı, nüfuzlu dövlətləri, ölkələri, beynəlxalq təşkilatları ədalətli qərarlar qəbul edərək, Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıdılar.

Ən xoş arzulardan, qəbul edilən dualardan biri də o oldu ki, artıq insanlarımız öz doğma torpaqlarına qayıdır, doğma Qarabağımızda evlər, mənzillər tikilir, məhv olunan abidələrimiz bərpa olunur, yollar çəkilir, torpaqlarımız minalardan təmizlənir, insanların yaşayışı üçün zəruri tədbirlər görülür. Şükürlər olsun ki, məscidlərimizdən Azan səsi eşidilir, bir sözlə, Qarabağımızda məqsədyönlü, iri, uğurlu layihələrin həyata keçirilməsi zəruri hala çevrilir.

Biz artıq xoşbəxt xalqıq. Ona görə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasət nəticəsində Qarabağa qayıdış başlayıb. Qarabağda yaşayış var, axşamlar mənzillərdə işıqlar yanır. Artıq tam əminliklə deyə bilərik ki, cənab prezidentimizin də söylədiyi kimi, Füzuli bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Cəbrayıl bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Qarabağın tacı olan Şuşa bizimdir!

Çox sevdiyim bir nəğmədə deyildiyi kimi, biz daha deməyəcəyik:

*Qarabağda bağım qaldı,*
*Neçə şirin çağım qaldı,*
*Qaralmış ocağım qaldı,*
*Evim oldu talan, gül...*

Həqiqətən də, cənab Prezidentimiz İlham Əliyevin dillərə dastan olan, dillərdən düşməyən "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" ifadəsi tarixə səs salaraq necə də gözəl səslənir.

**Kaşiyeva Flora, "Maliyyə ve audit" kafedrasının dosenti**

# Yüksək təhsil inkişafın təməlidir

*Təhsil millətin gələcəyidir.*
*H.Əliyev*

Ulu Öndər Heydər Əliyev deyirdi: təhsil millətin gələcəyidir. Bu müdrik kəlam günümüzün və gələcəyin inkişaf vektorlarını müəyyən edir. Doğrudan da, təhsil hər bir millətin inkişafının təməlidir. Ümummilli lider Heydər Əliyev ideyalarını yaradıcı surətdə reallaşdıran ölkə başçısının təhsilə daimi və böyük qayğısı bu sahənin sürətli inkişafına təkan vermişdir.

Təhsil formal və ya qeyri-rəsmi təhsil mühitində baş verən bilik, bacarıq və dəyərlərin mənimsənilməsi prosesidir. Bu proses insanın idrak imkanlarını zənginləşdirməyə və şəxsiyyətin inkişafına sistemli və məqsədyönlü təsir göstərir.

Müstəqilliyimizin ilk illərində ciddi zərbələr almış Azərbaycan təhsil sistemi haqda ümummilli liderin "təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır" müddəasından irəli gələn hədəflər, bu gün dünyəvi elmi-pedaqoji çərçivədə milli təhsil sisteminin inkişaf etdirilməsi Azərbaycan prezidentinin daima diqqət mərkəzindədir. Cənab Prezident İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda qarşıya qoyulan məqsəd və vəzifələrə uyğun olaraq ölkəmizdə mövcud təhsil sisteminin hərtərəfli inkişafı üçün beş strateji istiqamətdə genişmiqyaslı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Cənab Prezident İlham Əliyevin 19 iyun 2009-cu il tarixdə təsdiq etdiyi "Təhsil haqqında" Qanunun ilk müddəasında deyildiyi kimi, bu qanun "vətəndaşların Azərbaycan Respublikası Konstitusiyasında təsbit olunmuş təhsil hüququnun təmin edilməsi sahəsində dövlət siyasətinin əsas prinsiplərini və təhsil fəaliyyətinin tənzimlənməsinin ümumi şərtlərini müəyyən edir, təhsilin ayrı-ayrı pillələri üzrə müvafiq qanunların və digər normativ hüquqi aktların qəbul edilməsində baza rolunu oynayır". Bütünlükdə milli təhsil sistemini dünya standartları səviyyəsinə yüksəltmək kimi önəmli bir məqsəd uğrunda cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatları bir neçə aspektdən aşağıdakı kimi səciyyələndirmək mümkündür:

⚜ **Təhsilə investisiyalar:** Azərbaycanın təhsil sisteminə mühüm investisiyalar qoyulub. Təhsil müəssisələrinin tikintisi və müasirləşdirilməsi, müasir avadanlıqların alınması və təhsil proqramlarının hazırlanması üçün vəsait ayrılıb.

⚜ **Universitetlərin inkişafı:** Çoxlu sayda yeni universitetlər və kolleclər açılıb, bu da təhsil imkanlarının artmasına səbəb olub.

⚜ **Təhsil sistemində islahatlar:** Ali təhsilin müasirləşdirilməsi, keyfiyyətinin və onun əlçatanlığının yüksəldilməsi məqsədilə müxtəlif islahatlar aparılıb. Yeni təlim proqramları tətbiq edilib, dərsliklər yenilənib, müəllim hazırlığı təkmilləşdirilib, elmi-tədqiqat bazaları və avadanlıqları genişləndirilib.

⚜ **Təhsilə çıxış imkanlarının artırılması:** Dövlət tərəfindən təhsil almaq istəyən tələbələrə təqaüdlər və maliyyə dəstəyi verilməklə ali təhsilə çıxış imkanlarının artırılması istiqamətində xeyli işlər görülüb. Bundan əlavə, İnternetə çıxış olan hər yerdə təhsil resurslarına çıxışı təmin etmək üçün onlayn təhsil sistemi hazırlanıb.

⚜ **Beynəlxalq əlaqələr:** Azərbaycanın müstəqilliyi ali təhsil sahəsində beynəlxalq əlaqələrin qurulmasına yol açıb. Ölkə universitetləri dünyanın müxtəlif ölkələrinin universitetləri və təşkilatları ilə fəal əməkdaşlıq etməyə, təcrübə mübadiləsi aparmağa, əcnəbi tələbələri cəlb etməyə və birgə tədqiqatlar aparmağa yönəlib. Xarici universitet və təşkilatlarla tələbə və müəllim mübadiləsinə, birgə layihələrə və qabaqcıl təhsil təcrübəsinin tətbiqinə şərait yaradan çoxsaylı müqavilələr imzalanıb.

⚜ **Elmi potensialın gücləndirilməsi:** Dövlət tərəfindən ölkədə elmi tədqiqatların və innovasiyaların artmasına təkan verən elmi tədqiqatlara, laboratoriyaların və elmi mərkəzlərin yaradılmasına fəal şəkildə sərmayələr qoyulub.

⚜ **Ali təhsilin statusunun yüksəldilməsi:** Universitetlərin akkreditasiya sisteminin təkmilləşdirilməsi istiqamətində tədbirlər həyata keçirilib, Azərbaycan təhsilinin nüfuzunun artmasına kömək edən universitet reytinqləri tətbiq edilib. Təhsilin bu qədər vacib olmasını şərtləndirən mühüm amillər var. Hər şeydən əvvəl, təhsil iqtisadiyyatın müxtəlif sahələrində səmərəli işləməyə qadir olan yüksəkixtisaslı işçi qüvvəsinin formalaşmasını təmin edir.

Bacarıqlı və savadlı işçilər məhsuldarlığın artmasına və innovativ inkişafa töhfə verir.

İkincisi, təhsilli insanların əmək bazarında daha çox imkanları və daha yüksək gəlir səviyyələri var. Onlar sağlamlıq, təhlükəsizlik, şəxsi maliyyə planlaşdırması və ictimaiyyətin iştirakı da daxil olmaqla həyatın müxtəlif sahələrində əsaslandırılmış qərarlar qəbul edə bilərlər.

Üçüncüsü, təhsil yeni ideyaların, innovasiyaların və texnologiyaların yaranmasına və inkişafına kömək edir. Təhsilli insanlar tənqidi düşünmə, problem həll etmə, yaradıcı düşünmə bacarıqlarına malikdirlər və elmi tədqiqatlara, texnoloji inkişafa və iqtisadi artıma töhfə verə bilərlər.

Dördüncüsü, təhsil bərabər imkanları təşviq edir və sosial və iqtisadi bərabərsizliklərin aradan qaldırılmasına kömək edir. Təhsil ictimai həyatda iştirak etmək və vətəndaş cəmiyyəti yaratmaq üçün zəruri olan bilik və bacarıqları inkişaf etdirir.

Həqiqətən də, müasir dünyada hər bir ölkənin uğurunu biliklər, elm, texnologiyalar və təhsil müəyyən edir. Təhsil yeni texnologiyalar hazırlayan, elmi kəşflərə töhfə verən alim, tədqiqatçı və mühəndislərin mənbəyidir. Təhsil sisteminin inkişafı elmi tədqiqatlara, müxtəlif sahələrdə innovasiyalara və həyat keyfiyyətinin yaxşılaşmasına kömək edir, həyat standartlarını yaxşılaşdırır, məlumatlılığı və tənqidi düşüncəni inkişaf etdirir, iqtisadi artımı və sosial sabitliyi təşviq edir. Təhsil firavan və ədalətli cəmiyyət yaratmaq üçün ən mühüm vasitələrdən biridir. Aparıcı beynəlxalq təşkilatların statistik təhlilləri Azərbaycan təhsilinin beynəlxalq rəqabətə davamlılıq göstəricilərinin və Azərbaycan Respublikasının ərazisində yerləşən ali təhsil müəssisələrinin reytinq səviyyəsinin yüksəldilməsinin zəruriliyini bir daha sübut edir.

**Təranə Əliyeva,**
**Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Rəqəmsal texnologiyalar və tətbiqi informatika kafedrasının dosenti, f.r.e.n**

# Banklara güzəştli ipoteka kreditlərinin verilməsi üçün limitlər ayrıldı

Azərbaycan İpoteka və Kredit Zəmanət Fondu (İKZF) tərəfindən 2024-cü il ərzində ipoteka kreditləşməsi prosesinin davam etdirilməsi məqsədilə müvəkkil banklara ipoteka kreditlərinin, o cümlədən güzəştli ipoteka kreditlərinin verilməsi üçün limitlər ayrılıb. Bu barədə İKZF məlumat yayıb.

***"Adi ipoteka kreditləri üzrə müraciətlərin qəbulu fevralın 2-də saat 11:00-dan başlayacaq. Güzəştli ipoteka kreditləri üzrə müraciətlərin qəbulu ilə bağlı əlavə məlumat veriləcək",*** - məlumatda deyilir.

İpoteka kreditinin alınması üçün müraciətlərin qəbulu Elektron Hökumət Portalında (www.e-gov.az) mövcud olan "Elektron ipoteka və kredit zəmanət" sistemi vasitəsi ilə real vaxt rejimində həyata keçirilir.



# Dövlət Gömrük Komitəsi ötən il büdcəyə köçürmələrinin strukturunu açıqlayıb



2023-cü ildə Dövlət Gömrük Komitəsinin (DGK) xətti ilə büdcə daxilolmaları 6 milyard 337,539 milyon manat təşkil edib.

Bu, 2022-ci illə müqayisədə 12,1% çoxdur.

Son 1 ildə gömrük rüsumları üzrə daxilolmalar 14,6% artaraq 1 milyard 627,079 milyon manat, əlavə dəyər vergisi (ƏDV) üzrə daxilolmalar 11% artaraq 4 milyard 443,321 milyon manat, aksizlər üzrə daxilolmalar 32,8% artaraq 224,313 milyon manat, yol vergisi üzrə daxilolmalar isə 31,3% azalaraq 42,826 milyon manat olub.

# İtaliyanın Azərbaycan qazının idxalına çəkdiyi xərclər artıb

İtaliyanın Azərbaycan qazının idxalına çəkdiyi xərclər 2023-cü ilin noyabr ayında oktyabr ayındakı 364,2 milyon avro ilə müqayisədə əhəmiyyətli dərəcədə artaraq 619,2 milyon avroya çatıb. Bu barədə Trend-in sorğusuna cavab olaraq Avropa İttifaqının (Aİ) statistika idarəsi olan "Eurostat"dan bildiriblər.

Qeyd edək ki, bu, aylıq 70 faizdən çox artım deməkdir.

Eyni zamanda, qaz idxalı oktyabr ayındakı 881,2 milyon kubmetrlə müqayisədə 5,1 faiz azalaraq noyabr ayında 838,2 milyon kubmetrə düşüb.

2023-cü ilin ilk 11 ayı ərzində İtaliyanın Azərbaycandan idxal etdiyi qazın həcmi 8,5 milyard kubmetr olub ki, bunun da dəyəri 4,6 milyard avrodan çoxdur.

Qeyd edək ki, Cənub Qaz Dəhlizi vasitəsilə Azərbaycan qazının Avropaya nəqli 2020-ci il dekabrın 31-də başlayıb. Dəhliz vasitəsilə qaz Xəzər regionundan Gürcüstan və Türkiyə vasitəsilə Avropa ölkələrinə nəql olunur.

Layihənin dəyəri 33 milyard dollar olub. CQD layihəsinə çəkilən əsaslı xərclərin əvəzinin 8-10 il ərzində tam çıxarılacağı gözlənilir.

2022-ci ilin iyul ayında Azərbaycan və Aİ Cənub Qaz Dəhlizi ilə tədarüklərin həcmini hazırki 10 milyard kubmetrdən 2027-ci ildə 20 milyard kubmetrədək artırmaq barədə razılığa gəliblər.

# Ağdam Sənaye Parkındakı şirkətlərdən biri ilk ixraca başlayacaq



2024-cü ildə Ağdam Sənaye Parkında fəaliyyət göstərən şirkətlərdən biri ilk ixraca başlayacaq. Bu barədə AZPROMO-nun icraçı direktoru Yusif Abdullayev ötən ilin yekunları ilə bağlı keçirdiyi mətbuat konfransında deyib.

O qeyd edib ki, şirkətə "Made in Karabakh-heart of Azerbaijan" əmtəə nişanı təqdim ediləcək.

# İslam İnkişaf Bankı ilə anlaşma memorandumu imzalanıb

İqtisadiyyat Nazirliyi və İslam İnkişaf Bankı arasında "Azərbaycan üçün ölkə üzrə əməkdaşlıq çərçivəsinin hazırlanmasına dair Anlaşma Memorandumu"nun videokonfrans formatında imzalanma mərasimi keçirilib.

Trend xəbər verir ki, sənədi iqtisadiyyat naziri Mikayıl Cabbarov və İslam İnkişaf Bankı Qrupunun prezidenti Məhəmməd Süleyman Əl-Casir imzalayıblar.

Tədbirdə iqtisadiyyat naziri Mikayıl Cabbarov İslam İnkişaf Bankının (İİB) dövlət və özəl sektorun inkişafı istiqamətində ölkəmizə göstərdiyi dəstəyi vurğulayıb, Azərbaycanın İİB Qrupuna daxil olan institutlarla əməkdaşlığa önəm verdiyini diqqətə çatdırıb.

Ölkə üzrə əməkdaşlıq çərçivə sənədi Azərbaycan-İİB əməkdaşlığında yeni dövrün başlanğıcı kimi dəyərləndirilib. Sənədin icrasının "yaşıl" və dayanıqlı infrastrukturun inkişafına, iqtisadiyyatın şaxələndirilməsi və rəqəmsal transformasiyaya stimul verəcəyi qeyd olunub. Bildirilib ki, sənədə uyğun olaraq görüləcək işlər tərəflər arasında əməkdaşlığı və ölkəmizin sosial-iqtisadi inkişaf hədəfləri istiqamətində birgə fəaliyyəti gücləndirəcək.

İslam İnkişaf Bankı Qrupunun prezidenti Məhəmməd Süleyman Əl-Casir Azərbaycanda həyata keçirilən islahatların və "yaşıl" iqtisadiyyata keçidlə bağlı reallaşdırılan layihələrin İİB tərəfindən dəstəkləndiyini vurğulayıb. Məhəmməd Süleyman Əl-Casir Ölkə üzrə Əməkdaşlıq Çərçivəsinin potensial əməkdaşlıq sahələrini genişləndirəcəyini və iqtisadi artımı təşviq edəcəyini bildirib. Sənədin Azərbaycan və İİB arasında gələcək ortamüddətli əməkdaşlıq üçün əsas platforma olacağı qeyd olunub.

Görüşdə həmçinin, Azərbaycanın ev sahibliyi edəcəyi COP29 tədbirinin gündəliyində yer alan məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Almaniya COP29 çərçivəsində Azərbaycanla çalışmağa hazırdır

Bu barədə jurnalistlərə Almaniya Federal Xarici İşlər Nazirliyinin beynəlxalq iqlim siyasəti üzrə xüsusi nümayəndəsi Cenifer Morqan deyib.




*"COP konfransının uğuru inklüzivliyindədir. Bu tədbirlərdə qeyri-hökumət təşkilatları, vətəndaş cəmiyyəti iştirak edir. Özəl sektorun bu konfrans çərçivəsində iştirakı böyük əhəmiyyət kəsb edir.*

*Biz birbaşa olaraq COP29 prezidenti ilə işləməyə çalışırıq. Almaniyada 15-ci Petersberq İqlim Dialoqu keçirəcəyik və bu görüş çərçivəsində Azərbaycanla əməkdaşlıq etmək imkanını səbirsizliklə gözləyirik. Bu görüşün uğurlu keçməsi üçün mümkün olan hər şeyi edəcəyik. COP konfransının nəticələrinə görə əvvəlkindən üstün olması və əldə olunan irəliləyişi davam etdirməsi üçün mümkün olan hər şeyi edəcəyik"*, - o deyib.

Morqanın fikrincə, son illər ərzində COP-un müvəffəqiyyəti, əsasən, inklüzivliyindən ibarət olub. O cümlədən, ev sahibliyi edən ölkədəki qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti bunda mühüm rol oynayıb.

Qeyd edək ki, COP29 konfransının Azərbaycanda keçirilməsi barədə rəsmi qərar 2023-cü il dekabrın 11-də Dubayda elan olunub. Azərbaycan bu ilin noyabrında tədbirə ev sahibliyi edəcək.

# Cəbrayılda günəş stansiyaları tikiləcək



Qarabağ və Şərqi Zəngəzur böyük tikinti meydançasına çevrilib. Keçən il ərzində Cəbrayıl, Qubadlı, Zəngilanda 9 kənd, 1 qəsəbə, 3 şəhər mərkəzində müxtəlif yaşayış məhəllələri, məktəb, xəstəxana kimi təməlatmalar həyata keçirilib. Həmin infrastrukturlar, yaşayış kompleksləri insanların qayıdışına ciddi töhfə olacaq.

Trend xəbər verir ki, bunu ekoloji məsələlər üzrə işçi qrupun Zəngilanda keçirilən iclasında Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin xüsusi nümayəndəsi Vahid Hacıyev deyib. O bildirib ki, Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan olunub, artıq işğaldan azad edilən ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərində ətraf mühitin qorunması əsas prioritetdir:

*"Bu istiqamətdə böyük layihələr həyata keçirilməkdədir. Cəbrayılda günəş stansiyaları tikiləcək. Biz tikintidən danışırıqsa, bütün inzibati binalarımız, eləcə də, növbəti kəndlərin tikintisində yaşıl enerjidən istifadə ediləcək. Ağalı kəndinin enerji təminatı bərpa olunan enerji vasitəsilə aparılır. Ümumilikdə, ağıllı şəhər, ağıllı kənd konsepsiyasına innovativ yanaşmalar tətbiq olunacaq".*

Məşədixanım Nemət - 100

# Tarixin daş yaddaşını danışdıran alim

Yazılar tarixçinin bələdçisidir. Onlar tədqiqatçını tarixin izi ilə gerçəkliyə, dəqiq, bəzən də nadir və orijinal tarixi mənbələrə doğru aparır. Bu yol çətin, insan ayağı dəyməyən yerlərdən keçir.

Xalq şairi Səməd Vurğunun sözləri ilə desək:

***Kim bilir neçədir dünyanın yaşı,***
***Tarixin nə qədər yazısı vardır...***
***Üstündə yazı, yaxud təsvir olan hər bir daş vaxtilə yer üzündə yaşamış canlı bir insanın nişanəsi, daşlaşmış ürəyidir. Bəlkə də bu daşların üzərindəki təsvirlər tarixin zaman vasitəsilə bizə göndərdiyi əmanətlər, mesajlardır...***
***Hər saxsı parçası, hər məzar daşı***
***Nəsildən nəsilə bir yadigardır.***



Yaxın Şərqin ən qədim ölkələrindən biri olan Azərbaycanın ərazisi mədəni abidələrlə zəngindir. Min illər əvvəl zaman bu mənəvi dəyərləri tarixin yaddaşına həkk edib. Həkk edib ki, vaxtın ölçüsü dəyişsə də, onun yazdıqları, yaratdıqları tarixin ayrı-ayrı səhifələrində bizlərə olduğu kimi çatsın. Qədim abidələr xalqın tarixidir, onun mövcudluğunun sübutudur. Ulu əcdadlarımızın bizə miras qoyduğu qədim əlyazmalar, daş kitabələr arasında orta əsrlərin epiqrafik abidələri xüsusi yer tutur. X əsrin əvvəllərindən XX əsrin sonunadək memarlıq və tarixi abidələrdə müxtəlif xarakterli yazılara təsadüf olunur ki, burada orta əsrlər Azərbaycanının sosial-iqtisadi həyatının bir sıra suallarına cavab tapmaq mümkündür. Monumental memarlıq abidələrində saxlanılıb qalmış, bu abidələrin bədii tərtibatını təşkil edən, hətta qəbir daşlarının üzərində olan yazılar xalqımızın məişəti, sənəti, ticarəti, ictimai fikir tarixi və s. haqqında mülahizələr yürütməyə, həqiqəti üzə çıxarmağa imkan verir. Bunlar əsrlərin əks-sədalarıdır, tarixin izləridir, Azərbaycan xalqının öz əli ilə yazılmış tarixinin monumental səhifələridir. Bu səhifələri hərf-hərf, sətir-sətir, vərəq-vərəq oxuyanlardan, respublikamızın bütün ərazisini qarış-qarış gəzib qədim abidələrimizi tədqiq edənlərdən biri də Məşədixanım Nemət olub.

Məşədixanım Nemətova. AMEAnın müxbir üzvü, tarix elmləri doktoru. 1924-cü il yanvarın 5-də Bakının II Zabrat kəndində anadan olmuş, indiki Bakı Dövlət Universitetinin Şərqşünaslıq fakültəsini bitirmişdir. 1954-cü ildə namizədlik, 1968-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmişdir. 2001-ci ildə AMEAnın müxbir üzvü seçilmişdir. Məşədixanım ilk azərbaycanlı epiqrafist elmlər doktoru, şərqşünas alim idi. 1968-ci ildə o, "Epiqrafik abidələr və onların XVI-XIX əsr Azərbaycanının sosial iqtisadi və siyasi tarixinin öyrənilməsində əhəmiyyəti" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. 1969-1977-ci illərdə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsində epiqrafika fənnindən dərs demişdir. Məşədixanım hələ tələbəlik illərində elmə, tarixi abidələrdəki ərəb və fars yazılarına böyük həvəs göstərmiş, bu həvəs, bu arzu da onu aspiranturaya gətirib çıxarmışdır.

1954-cü ildən Azərbaycanın bütün epiqrafik abidələrini tədqiq etmək fikrinə düşən gənc alim Dərbənddən Laçına qədər, Sabirabaddan Qutqaşenə (indiki Qəbələ) qədər bütün qədim sarayları, körpüləri, karvansaraları, xanəgahları, pirləri, ovdanları, məscidləri, qalaları, məqbərələri gəzərək, onların üzərindəki kitabələri toplayıb, tədqiq etməyə başlamışdır. O, həmçinin Gürcüstan və Ermənistan ərazisində yerləşən Azərbaycan abidələrini də nəzərdən keçirmişdir. Məşədixanım Nemət bir sıra doktorluq və namizədlik dissertasiyalarında opponent olmuşdur. O, Memarlıq Abidələrinin Bərpası İdarəsinin elmi məsləhətçisi olmuşdur. Respublikanın bir sıra tarix diyarşünaslıq muzeylərində sərgilərin qurulmasında iştirak etmişdir. Tarixi abidələrin qorunması, istifadə olunması qaydaları, epiqrafik abidələrin tarixi mənbə kimi əhəmiyyəti və s. bu kimi məsələlərə dair televiziya və radio kanallarında çıxışlar etmişdir. Məşədixanım Nemət Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya üzrə müdafiə şurasının, institutun elmi şurasının, Tarixi mədəniyyət abidələrinin qorunması cəmiyyətinin rəyasət heyətinin, Azərbaycan MEA ictimai elmlər şöbəsi nəzdindəki Orta Əsr Azərbaycan Tarixi Koordinasiya Şurasının üzvü olmuşdur. Əsərləri Bakı, Moskva, Sankt-Peterburq, Aşqabad, Daşkənd, Mahaçqala və Türkiyədə nəşr olunmuşdur.

### Azərbaycanın amazonkası

Azərbaycanda epiqrafika elmi məhz Məşədixanım müəllimənin vətən sevgisi, inadkarlığı, yorulmazlığı sayəsində bir məktəb formalaşdırmışdır və bu məktəblə indi dünya hesablaşır. Məsələn, qədim Azərbaycan torpağı olan Zəngəzur abidələrini (Urud abidələri) erməni abidələri kimi qələmə vermək istəyən erməni tarixçilərini sovet dövründə ilk susduran Məşədixanım Nemət olmuşdur. Məşədixanım Nemətin aşkar etdiyi çox nadir faktlar "Böyük Ermənistan" xülyaları ilə yaşayan, Urud abidələrindəki kitabələri təhrif edərək, qəbiristanlığı darmadağın edən və Zəngəzurun heç vaxt Azərbaycan torpaqlarına daxil olmadığını sübut etməyə çalışan üzdəniraq erməni tarixçilərinə sanki müharibə elan etmiş, daş kitabələri toplamaqla, oxuyub dəlil-sübutlar tapmaqla onların qarşısına dəqiq faktlar qoymuşdur. Erməni tarixçiləri nəyin bahasına olursa-olsun, Dərbənddən o yana olan abidələrin onların əcdadlarına məxsus olduğunu sübut etməyə çalışsalar da, Məşədixanım Nemət təkzibolunmaz faktlarla atəşpərəst albanların, tarix boyu bu torpaqda yaşamış türklərin, türkdilli xəzərlərin, türkdilli qıpçaqların, köçəri çöllülərin, skiflərin qədim, köklü mədəniyyətlərini üzə çıxarmış və sübut etmişdir ki, bu torpaqlar heç vaxt ermənilərin olmayıb. Bu işdə Məşədixanım Nemətin xidmətləri əvəzsizdir. Məşədixanim Nemət təkcə Abşeronun, Şirvanın, Muğanın, Qarabağın, Milin, Gəncəbasarın deyil, Naxçıvanın, Dərbəndin, erməni işğalı altında olan Qərbi Azərbaycanın, Gürcüstandakı azərbaycanlı abidələrinin daş yazılarını oxumuşdur. Ərəb-fars əlyazması ilə yazılmış, hətta IX əsrə aid olan unudulmuş xətləri də Məşədixanım Nemət oxumuşdur. Azərbaycan memarlığı tarixində Əcəmidən sonra görkəmli yer tutan, XIII əsrdə yaşayıb-yaratmış memar Əli Məcdəddinin adını da kitabələrə əsasən Məşədixanım Nemət aşkar etmiş, dünyaya tanıtmışdır. O, bu barədə şeirlərinin birində deyirdi:

***Daş etmişmi ürəkləri daşa***
***dönmüş kitabələr?***
***Qulaq verin, türk babamın***
***öyüdləri nələr söylər.***
***Neçə-neçə alim, memar, nəqqaş,***
***xəttat adlarını***
***Sənət tarixinə vermiş yadigardır***
***kitabələr...***

Bu zərif qadını tez-tez təbiətin qoynunda, kol-koslu meşələrdə, ilanlar mələşən qanqallı qəbiristanlıqlarda, sıldırım qayalıqlarda, düzənlərdə at belində görmək olardı. Tarixçilər ona "Azərbaycanın amazonkası" adını vermişdilər. Bu çətinliklərə sinə gərmək hər qadının hünəri deyildi.

Bir maraqlı faktı da qeyd etməmək mümkün deyil. 1999-cu ildə Naxçıvan Muxtar Respublikasının 75 illik yubileyi ilə əlaqədar Dövlət Komissiyasının iclasında Məşədixanım Nemətin Urud kəşfləri haqqındakı çıxışı Ulu Öndər Heydər Əliyevin böyük marağına səbəb olmuşdu. Ulu Öndər buradakı tarixi çıxışında demişdi: ***"Biz ermənilərin bütün bu iddialarının əsassız, uydurma olduğunu beynəlxalq aləmdə sübut etməliyik. Bunun üçün əsaslı sənədlər, fundamental elmi, populyar nəşrlər yaranmalıdır. Biz Azərbaycanın ərazi bütövlüyünü nəinki yaşadığımız indiki illərdə, gələcək nəsillər üçün də qoruyub saxlamaqdan ötrü çox güclü bir konsepsiya yaratmalıyıq. Bundan sonra da elə əsərlər yaranmalıdır ki, o əsərlər indi Ermənistan Respublikası yerləşən həmin torpaqların Azərbaycana məxsus olmasını daim, ardıcıl surətdə sübut etsin".***

### Alim adını qürurla daşıyan qadın

Məşədixanım müəllimə QADIN adını ləyaqətlə, ANA adını şərəflə, ALİM adını qürurla, AZƏRBAYCANLI adını fəxrlə daşıyan gözəl insan idi. Ömrünün 60 ildən çoxunu bu elm sahəsinə həsr etmiş görkəmli alim apardığı axtarışlar nəticəsində 2500-dən artıq ərəb, fars və türkdilli ərəb qrafikasının ən çətin oxunan, müxtəlif xətlərlə yazılmış kitabələrini toplamış, Azərbaycan tarixi, memarlıq, sənətşünaslıq, toponomika, tibb tarixi, Azərbaycan xalqının təşəkkülü və s. bu kimi problemlərə dair 12 monoqrafiya çap etdirmişdir. O, 200-dən çox elmi tezis və məqalənin, o cümlədən 6 cildlik "Azərbaycanın epiqrafik abidələrinin toplusu"nun müəllifidir. 2009-cu il martın 4-də "Azərbaycanda epiqrafik irsin tədqiqi sahəsində xüsusi xidmətlərinə görə" Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Bir şeirində deyir:

*Var idim, izim qaldı*
*Od idim közüm qaldı.*
*Əsrin daş yaddaşında*
*Mənim də izim qaldı...*

Əsrin daş yaddaşında sözü və izi qalan Məşədixanım müəllimə 2016-cı ilin dekabrında dünyasını dəyişdi. Şərəfli ömür sürən bu gözəl insan onu sevən hər bir kəsin qəlbində özünə kiçik bir abidə ucalda bilmişdir. Bu abidə qeyrət, ləyaqət, vətənpərvərlik abidəsidir...

## Mərkəzi Gömrük Hospitalında gömrük əməkdaşlarının peşə bayramına həsr olunmuş tədbir keçirilib





30 yanvar 2024-cü il tarixində Mərkəzi Gömrük Hospitalında Dövlət Gömrük Komitəsinin yaradılmasının 32-ci ildönümü - gömrük əməkdaşlarının peşə bayramı gününə həsr edilmiş tədbir keçirilib. Tədbirdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, tibb xidməti general-mayoru Ceyhun Məmmədov, Dövlət Gömrük Komitəsi sədrinin müşaviri Əsgər Məmmədov, rəis müavinləri - dosent, t.ü.f.d. İsmayıl Əfəndiyev, Şahlar Mirqasım, Mərkəzi Gömrük Hospitalının baş həkimi Bəxtiyar Musayev, Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin və Mərkəzi Gömrük Hospitalının kollektivi iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlayıb. Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, tibb xidməti general-mayoru Ceyhun Məmmədov açılış nitqi ilə çıxış edərək, bütün gömrükçüləri peşə bayramı münasibətilə, eləcə də Azərbaycan Respublikası Prezidentinin Dövlət Gömrük Komitəsinin ali xüsusi rütbə və medallarla təltif etdiyi əməkdaşlarını təbrik edib.

İdarə rəisi Ceyhun Məmmədov qeyd edib ki, Azərbaycan öz müstəqilliyini yenidən bərpa etdikdən sonra dövlət quruculuğu sahəsində təxirəsalınmaz vəzifələr ölkənin iqtisadi maraqlarının qorunması, səmərəli iqtisadi fəaliyyət və idxal-ixrac əməliyyatlarına dövlətin nəzarət sisteminin yaradılması, sərhədlərin iqtisadi təhlükəsizliyinin təmin edilməsi idi. Qısa zaman kəsiyində ölkənin milli gömrük xidmətiinin yaradılması və formalaşdırılması əsas vəzifələrdən biri kimi qarşıda dururdu. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən qısa müddət sonra - 1992-ci il yanvarın 30-da yaradılmış Dövlət Gömrük Komitəsi Ulu Öndər Heydər Əliyev tərəfindən həyata keçirilən uzaqgörən siyasət və köklü islahatlar nəticəsində dinamik inkişaf yoluna qədəm qoydu.

Əsgər Məmmədov yarandığı gündən indiyə qədər Dövlət Gömrük Komitəsinin keçdiyi inkişaf yolundan danışıb, deyib ki, bu gün Azərbaycanda Ulu Öndər Heydər Əliyevin layiqli davamçısı cənab Prezident İlham Əliyev gömrük işinin təkmilləşdirilməsini, modernləşdirilməsini daim diqqət mərkəzində saxlayır. Hazırda biz gömrük xidmətində elektron xidmətlərin sayının artmasının, informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin canlı şahidiyik. Bütün bu islahatlar gömrük orqanlarında xidmət mədəniyyətinin yüksəldilməsinində və beynəlxalq ticarətin asanlaşdırılmasında əhəmiyyətli rol oynayır.

Dövlət Gömrük Komitəsinin Tibbi Xidmət İdarəsinin İnzibati İdarəetmənin təşkili şöbəsinin rəisi Minurə Ağayeva xidmətdə fərqlənən gömrük əməkdaşları ilə bağlı təltif əmrlərini iştirakçıların diqqətinə çatdırıb.

Tədbirin sonunda Mərkəzi Gömrük Hospitalının Texniki-təsərrüfat şöbəsinin rəisi Pərviz Sadıqov, Xəstə xidmətləri şöbəsinin rəisi Gülşən İmanova və Kardiologiya şöbəsinin rəisi İlqar Tahiroğlu çıxış edərək, öz səmimi təbriklərini səsləndiriblər.

Tədbirdə Dövlət Gömrük Komitəsinin 2023-cü il ərzində həyata keçirdiyi yeni layihələrdən bəhs edən videoçarx və Mərkəzi Gömrük Hospitalının həkimlərinin təbrik videosu nümayiş etdirilib.

***Dilarə Zamanova,***
***Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi***

## Xankəndi şəhərində ilk mobil operator mağazası fəaliyyətə başladı




Azad edilmiş ərazilərin dirçəlişinə dəstək verməyə davam edən Bakcell Xankəndi şəhərində rəsmi diler mağazasını təqdim edən ilk mobil operator oldu. 24 yanvar tarixindən etibarən Qarabağ universiteti ilə üzbəüz ünvanda yerləşən Bakcell mağazası müştərilərə yüksək sürətli və innovativ rabitə xidmətlərini təqdim edir. Xankəndi şəhərində yeni mağazanın fəaliyyətə başlamasının şirkət üçün çox önəmli nailiyyət olduğunu vurğulayan Bakcell şirkətinin Baş icraçı direktoru Klaus Müller bildirib: "Əsas məqsədimiz Qarabağ və Şərqi Zəngəzur bölgələrini qısa müddət ərzində ölkənin ən sürətli şəbəkəsinə qoşmaqla Bakcell şirkətinin innovativ məhsullarını bütün abunəçilərə təqdim etməkdir."

Qeyd edək ki, Bakcell şirkəti işğaldan azad olunmuş ərazilərdə şəbəkəsinin genişləndirilməsinə 23 milyon manat həcmində investisiya yatırıb. Bakcell Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəran kimi yaşayış məntəqələrinin mobil şəbəkə ilə əhatə edilməsini qısa zamanda təmin edib. Həmçinin, Şuşa, Zəngilan, Cəbrayıl, Qubadlı, Kəlbəcər, Laçın rayonlarında əhalinin məskunlaşdığı və infrastruktur işlərinin aparıldığı ərazilərdə Bakcell şəbəkəsi abunəçilərə təqdim edilib.




**Azəri Light və Brent markalı neftin bir barelinin 25 – 31 yanvar tarixlərində satış qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

**İqtisadçı ekspert: Maqsud Quliyev**

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**www.iqtisadiyyat.com**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**